RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 219 (8242) CÜMƏ, 4 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Hədəf insanların güzəranını daha da yaxşılaşdırmaqdır

### Ardıcıl islahatlar dövlət başçısının verdiyi vədlərin əməli işlə təsdiqləndiyini göstərir

Sosial-iqtisadi inkişaf sahəsində hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması bir daha göstərir ki, dövlət başçısı tərəfindən verilən vədlər həyatda öz təsdiqini tapır. Prezident İlham Əliyev dövlətin siyasətinin mərkəzində hər zaman Azərbaycan vətəndaşının dayandığını vurğulayır və bu, həqiqətən belədir.

Əhalinin sosial təminatının daha da yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır, əməkhaqqı, pensiya, təqaüd və müavinətlərin artırılması ardıcıl olaraq həyata keçirilir. Son 15 ildə ölkədə 2 milyon yeni iş yeri açılıb. Bu məsələ şəxsən Prezidentin nəzarətindədir. Belə ki, dövlət başçısı yeni yaradılan iş yerləri ilə yanaşı, bağlanan iş yerləri ilə də maraqlanır, səbəbləri araşdırmaq, işsiz qalan vətəndaşların məşğulluğunu təmin etmək barədə göstərişlər verir. Yeni iş yerlərinin açılmasının dinamikası müsbət olsa da, məşğulluq probleminin həlli daim gündəmdədir və Prezident bu prosesin dayanmadığını dəfələrlə vurğulayıb.

Görülən tədbirlərin nəticəsidir ki, ölkədə işsizliyin və yoxsulluğun səviyyəsi 5 faizdən də aşağı düşüb.

Dövlətin öz vətəndaşının rifahı üçün etdikləri bununla bitmir. Sosial infrastrukturun tamamilə yenidən qurulması, o cümlədən təzə tikilən, yaxud əsaslı təmir edilən 3200-dən çox məktəb xalqın sabahına hesablanmış, uzaqgörənliklə həyata keçirilmişdir. Daha bir rəqəm - tikilən, yaxud tam təmir edilən 640 xəstəxana insanların sağlamlığına göstərilən qayğıya əyani misaldır. Bu tibb ocaqları ən müasir avadanlıqlarla təchiz olunub. İndi hətta bir sıra bölgələrdə də müalicə-diaqnostika mərkəzləri fəaliyyət göstərir və rayon, kənd sakinlərinin paytaxta gəlməsinə ehtiyac qalmır. Bəlkə də dünyada ikinci elə bir ölkə yoxdur ki, orada dövlət başçısının tapşırığına əsasən əhali ildə bir dəfə pulsuz olaraq tam tibbi müayinədən keçirilir.

Son illərdə bir çox bölgələrdə olimpiya idman kompleksləri inşa edilib, müxtəlif idman qurğuları isə, demək olar ki, hər kənddə var.

Bəli, bugünkü Azərbaycan kəndi 1990-cı illərin əvvəlindəki kənd deyil. İşığı olmayan, qaz barədə heç düşünməyən, içməli və suvarma suyundan qıtlıq çəkən, torpağı əkib-becərməyə texnika, toxum, gübrə tapmayan kəndli o günləri indi yuxu kimi xatırlayır. Bugünün kəndlisi torpağının sahibidir, dövlətdən hərtərəfli dəstək alır, məhz buna görə şəraiti heç də şəhərdəkindən fərqlənmir. Bunun sayəsində kənddən şəhərə axın, bir çoxlarının qazanc üçün yad məmləkətlərə üz tutması səngiyib. İndi iş yeri axtarışında qonşu ölkələrə gedənlərin çoxu geri qayıdıb.

Dövlət Statistika Komitəsinin məlumatları göstərir ki, son illərdə Azərbaycana daimi yaşamağa gələnlərin sayı ölkədən biryolluq köçüb gedənlərin sayından dəfələrlə çoxdur. Bu da 2004-cü ildən bəri regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarının həyata keçirilməsi nəticəsində əldə edilən nailiyyətlərin ən önəmli olanlarından biridir.

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyasını uğurla davam etdirməklə yanaşı, onu günün tələbləri baxımından inkişaf etdirdi. Qədim neft diyarımız dünyada həm də qaz ixrac edən ölkə kimi tanındı. Azərbaycan qlobal neft, qaz və ixrac layihələrinin təşəbbüsçüsü və aparıcı qüvvəsi kimi çıxış etdi. Ən başlıca mətləblərdən biri də həmin layihələrdən gələn vəsaitlərin iqtisadiyyatın şaxələndirilməsinə, yeni iş yerlərinin açılmasına, ən ümdə problemlərin həllinə yönəldilməsidir.

Başqa sözlə, Prezident İlham Əliyev neft kapitalını insan kapitalına çevirdi.

Ardı 4-cü səh.

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri

# İlham ƏLİYEV: "Bizim üçün Rusiya ən mühüm tərəfdaş, dost, mehriban qonşudur"






Oktyabrın 3-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Prezident Vladimir Putin Prezident İlham Əliyevi qarşıladı.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Sonra Prezident İlham Əliyev ilə Prezident Vladimir Putin arasında görüş oldu.

Rusiya Prezidenti **Vladimir PUTİN** dedi:

Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar!

İcazə verin, sizin hamınızı ürəkdən salamlayım.

Bu dəfə biz Soçidə beynəlxalq siyasi diskussiya klubu çərçivəsində görüşürük. Tədbir ilk dəfə Valdayda keçirildiyinə görə biz onu "Valday klubu" adlandırırıq.

Görüşümüzün əvvəlində qeyd etmək istərdim ki, Sizi görməyə çox şadam. Biz çoxdandır ki, görüşməmişik. Lakin şəxsi görüşlərimizdə, əlaqələrimizdə fasilə olmasına baxmayaraq, ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir.

Ticari-iqtisadi əlaqələr möhkəmlənir. Keçən il əmtəə dövriyyəsinin həcmi 2,5 milyard dollar olub. Bu istiqamətdə yaxşı perspektivlərimiz var. Mən o planları nəzərdə tuturam ki, onların əsas müəllifi Azərbaycan Prezidentidir. Biz də öz tərəfimizdən bu konkret, mənim fikrimcə, iri layihələrin reallaşması üçün bizdən asılı olan hər şeyi edirik. Bunun üzərində hökumətlərarası komissiya işləyir və zənnimcə, kifayət qədər inamla işləyir.



Başqa istiqamətlər üzrə münasibətlərimizin vəziyyəti barədə də fikir mübadiləsinə ehtiyac var. Ümidvaram ki, bu gün biz bütün bunlara nail olacağıq. Ümid edirəm ki, Siz bu maraqlı ümumi diskussiyada iştirak edəcəksiniz.

Bu gün buraya gəldiyinizə görə çox sağ olun.

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

Dəvətə görə çox sağ olun, Vladimir Vladimiroviç.

"Valday" diskussiya klubunun işində iştirak etmək mənim üçün böyük şərəfdir. Bu klub bu gün müasir dünya nizamının qlobal aktual məsələlərinin müzakirəsi üçün çox mühüm beynəlxalq məkandır. Əlbəttə ki, bu görüşə görə təşəkkür edirəm.

Sizin qeyd etdiyiniz kimi, biz müəyyən müddətdə, daha dəqiq desəm dörd aydır ki, görüşməmişik. Bizim əlaqələrin intensivliyini nəzərə alsaq, bu, yetərincə böyük müddətdir. Keçən il biz dörd dəfə görüşmüşdük. Bu görüşlər çox müsbət rol oynayır, strateji tərəfdaşların münasibətləri kimi səciyyələndirdiyimiz əlaqələrimizin inkişafına yaxşı təkan verir.

Ticari-iqtisadi sahədə müsbət dinamikanı da qeyd etmək istərdim. Əmtəə dövriyyəsi artır - keçən il də, bu il də. Bizdə olan məlumata görə, avqust ayına qədər artım 20 faizdən çox olub. Sizinlə bizim təsdiq etdiyimiz "Yol xəritələri"nin reallaşdırılması da əlbəttə, daha sıx qarşılıqlı fəaliyyətə, bütün sahələrdə inteqrasiyaya və əməkdaşlığa gətirib çıxaracaq.

Bizim üçün Rusiya ən mühüm tərəfdaş, dost, mehriban qonşudur. Biz bu münasibətləri çox qiymətləndiririk. Əminəm ki, bugünkü diskussiya əlaqələrimizin gələcək inkişafına yaxşı töhfə olacaq.

Dəvət üçün bir daha sağ olun.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, iqtisadi, investisiya qoyuluşu, hərbi və hərbi-texniki, kənd təsərrüfatı, turizm və humanitar sahələrdə əməkdaşlıq barədə müzakirələr aparıldı.

Nümayəndə heyətlərinin geniş tərkibdə görüşündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin təkbətək söhbət etdilər.

## Sahibkarlar etimadı doğruldur

İnkişaf etmiş ölkələrin iqtisadi gücünün artmasına diqqət yetirdikdə görürük ki, həmin ölkələr buna dərin islahatlar keçirməklə nail olub. Bu ölkələrdə aparılan islahatlar həm hüquqi, həm də maliyyə qanunvericiliyi ilə tənzimlənib. Azərbaycanda da islahatlar aparılarkən bu iki vacib elementə diqqət yetirilib. Belə ki, ilk növbədə iqtisadi inkişafa nail olmaq üçün qanunvericilik bazası yaradılıb. Bunun ardınca onun maliyyələşmə mexanizmləri işlənərək hazırlanıb.

Heç kəsə sirr deyil ki, müstəqilliyimizin ilk illərində özəl sektora dövlət tərəfindən dəstək verilməsəydi, təkcə qəbul edilən qanunlarla sahibkarlığı və özəl sektoru inkişaf etdirmək mümkün olmazdı. Dövlət sahibkarlığın formalaşması, ilkin kapitalın əldə edilməsi üçün güzəştli kreditlər verdi. Bundan istifadə edən iş adamları tədricən öz bizneslərini inkişaf etdirməyə başladı. Hazırda Azərbaycanda mükəmməl sahibkarlıq sektoru formalaşıb. İş adamlarımız nəinki ölkədə, hətta xarici dövlətlərdə belə biznes qura bilirlər. Bir daha qeyd edək ki, bütün bu imkanları onlar dövlət tərəfindən verilən dəstək sayəsində qazanıblar.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətin sahibkarlığın inkişafına xüsusi önəm verdiyini vurğulayaraq demişdir: "Bu il sahibkarlığın inkişafı ilə bağlı əlavə addımlar atılacaq. Bildirməliyəm ki, əvvəlki illərdə 2,2 milyard manat məbləğində güzəştli kreditlər verilmişdir, keçən il isə 160 milyon manat...

Ardı 3-cü səh.

## Beynəlxalq miqyasda ehtiramla qarşılanan siyasət

### "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar iclasına dəvət olunması Prezident İlham Əliyevə dünyada olan böyük hörmətin göstəricisidir

Populist vədlər üzərində hakimiyyətə gələn Nikol Paşinyanın siyasi proseslərdəki naşılığı və təcrübəsizliyi, real vəziyyəti dərk edə bilməməsi mütəmadi olaraq özünü büruzə verir. Eyni zamanda, ötən ilin may ayından bəri erməni cəmiyyətində müsbətə doğru heç bir dəyişiklik baş verməyib. Bunun nəticəsidir ki, ictimai rəydə Ermənistanın baş nazirinin reytinqi sürətlə aşağı düşməkdədir.

### Yerevan sammiti Paşinyanın növbəti məğlubiyyəti oldu

İnsan azadlıqlarının, hüququn aliliyinin, demokratik dəyərlərin təmin olunması, Ermənistanın iqtisadi inkişafına şərait yaradılacağı və digər bu kimi şüarlarla hakimiyyətə gələn Paşinyanın azmüddətli rəhbərliyi dövründə ölkədə vəziyyət daha da gərginləşir, diplomatik məğlubiyyətlərin sayı durmadan artır. Özündən əvvəlki hakimiyyət mənsublarına qarşı repressiyaların təşkili, demokratiya adı altında insan haqlarının kütləvi şəkildə pozulması hallarının durmadan artması, siyasi rəqiblərinin qeyri-qanuni yollarla neytrallaşdırılması, faktiki olaraq diktatura üsuli-idarəsinin tətbiq edilməsi, iqtisadi tənəzzülün dərinləşməsi, ölkədə vəziyyətin daha da pisləşməsi - Paşinyanın hakimiyyətdə olduğu qısa müddəti əyani şəkildə göstərən faktorlardır.

Digər tərəfdən, yürütdüyü anlaşılmaz siyasət səbəbindən ənənəvi tərəfdaşları da Yerevana olan inamlarını tam itiriblər və münasibətlərdəki soyuqluq davam edir. Paşinyan özü isə digər dövlət başçıları tərəfindən ümumiyyətlə ciddi qəbul olunmur. Bunu bir neçə gün əvvəl Avrasiya İqtisadi İttifaqının Yerevanda keçirilən sammitində yaşananlar da təsdiq etdi.

Öncə onu qeyd edək ki, Avrasiya İqtisadi İttifaqının sammitinin Yerevanda keçirilməsi adi rotasiya qaydasında baş tutub. Ermənistanda hakimiyyətə yaxın KİV bunu Paşinyanın uğuru kimi qələmə verməyə çalışsa da, siyasi dairələrdə erməni baş naziri sammitdən öz nüfuzu baxımından ümumiyyətlə yararlana bilmədi.

Məsələn, Paşinyan ev sahibi olsa da, onun Rusiya Prezidenti Vladimir Putinlə görüşü son anda baş tutub. Rəsmi Yerevan bu görüşə çoxdan hazırlaşırdı və yüksək səviyyədə keçirilməsi üçün diplomatik kanalları işə salmışdı. Ermənistan mediası da təsdiq edir ki, rəsmi Yerevan bu görüşün baş tutması üçün çox ciddi səylər göstərib, görüş üçün Rusiya tərəfi ilə dəfələrlə əlaqə yaradılıb və xahişlər olunub.

Vladimir Putinlə N.Paşinyan arasında görüş günün sonunda, özü də sammit çərçivəsində baş tutub. Bu isə Ermənistana və onun baş nazirinə olan münasibətin göstəricisidir. Xatırladaq ki, bundan öncə də ABŞ-a səfəri öncəsi Paşinyanın Donald Trampla görüşəcəyini piar edən Ermənistan mediası baş nazirin yalnız ABŞ Prezidenti ilə selfi çəkdirməyə nail olduğundan məyusluğunu gizlədə bilməmişdi.

### Ermənistanın baş naziri ciddi siyasətçi kimi qəbul olunmur

Əslində, protokol qaydalarına görə, sammiti, zirvə görüşünü və ya hansısa tədbiri təşkil edən ölkənin rəhbəri ayrı-ayrılıqda hər bir dövlət və hökumət başçısı ilə görüşür. Bir çox hallarda bu görüş geniş tərkibdə keçirilir, ikitərəfli münasibətlər müzakirə olunur. Dəfələrlə bu kimi tədbirlərə evsahibliyi edən Azərbaycanın nümunəsi, Prezident İlham Əliyevin dövlət və hökumət başçıları ilə ayrı-ayrılıqda, geniş tərkibdə görüşləri bunu əyani şəkildə təsdiqləyir.

Ardı 3-cü səh.

## Dövlət dəstəyinin bəhrəsi

### "Ağ qızıl" tayaları sıralanır

"P-Aqro" MMC-nin Salyan rayonunun Şorsulu kəndində yerləşən filialı ilin əvvəlində 287 nəfər torpaq mülkiyyətçisi və fermerlə müqavilə bağlamışdır. Pambıq əkən sahibkarlar toxum, texniki vasitələr, mineral gübrələr, pul vəsaiti ilə vaxtlı-vaxtında təmin olunmuşlar. Nəticədə 2050 hektar sahədə bol məhsul yetişdirilmişdir.

Biz filialda olarkən sahə aqronomu Dünyamir Quliyev "Conder" kombaynlarının sürücü-mexanizatorları Seymur Əliyev, Vüqar Ağayevə, nəqliyyat traktorlarının sürücüləri Ceyhun Rzayev, Rəşid Alıyev və Tofiq Zahidoğluna tapşırıq verirdi. Bir azdan müəssisənin həyətindəki səs-küydən əsər-əlamət qalmadı.

Sahələrə cəmiyyətin baş aqronomu Ələsgər Əliyevlə getdik. Hər tərəfdə qızğın iş gedirdi. Bir yanda pambıq yığılır, bir az aralıda biçilən yonca preslənir, digər tərəfdə payızlıq taxıl əkini üçün şum aparılırdı. Ağ örpəyə bürünmüş geniş sahədə işləyən pambıqyığanlar dənizdə üzən gəmiləri xatırladırdı. Mülkiyyətçi E.Cavadov da orada idi. Görüşüb hal-əhval tutandan sonra baş aqronom Ə.Əliyev açılmış qozalardan birini dərib nəmliyini yoxlayıb hər lifdə neçə çiyid olduğunu bilmək üçün toxumları bir-bir sayıb üzünü sahibkara tutdu:

Ardı 4-cü səh.



# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri

## Prezident İlham Əliyev Soçidə Rusiyanın “Rossiya” və “Birinci” televiziya kanallarının müxbirlərinin suallarını cavablandırıb






AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Soçidə Rusiyanın “Rossiya” və “Birinci” televiziya kanallarının müxbirlərinin suallarını cavablandırıb.

## Soçidə “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilib

### Prezident İlham Əliyev sessiyada iştirak edib




Oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin, İordaniya Kralı II Abdulla sessiyada çıxış edərək gündəlikdə duran məsələlərin Asiyaya aid olduğunu dedilər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

Dövlət başçısı plenar sessiyaya dəvətə görə Rusiya Prezidentinə minnətdarlığını bildirdi, Rusiya-Azərbaycan münasibətlərinin inkişafına nəzər saldı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev Ermənistanın işğalının nəticələrinə diqqət yetirdi, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi 4 qətnamənin 25 ildən çoxdur yerinə yetirilmədiyini vurğuladı. Prezident İlham Əliyev Ermənistanın baş nazirinin “Qarabağ Ermənistanın hissəsidir və nöqtə” bəyanatının yalan olduğunu vurğulayaraq dedi: “Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”.

Sonra Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Filippin Prezidenti Rodriqo Roa Duterte çıxış etdilər.

Daha sonra Prezident İlham Əliyev və tədbir iştirakçıları sualları cavablandırdılar.

## Azərbaycan Respublikasının təhsil işçilərinin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə aşağıdakı təhsil işçiləri “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Abbasov Abbas İmran oğlu
Abbasova Dilarə Şaban qızı
Abdullayeva Kəlmət Abdulla qızı
Ağayev Sərxan Şaxyəddin oğlu
Babayev Fuad Polad oğlu
Baxşəliyev Elburus Şəkəralı oğlu
Baxşiyev Zamin Şahab oğlu
Bayramov Bəxtiyar Muxtar oğlu
Budaqova Sevinc Budaq qızı
Cabarova Xəyalə Ramiz qızı
Cəbrayılov Vahid Allahyar oğlu
Cəfərov Asif Musa oğlu
Cəfərova Tamam Şaməmməd qızı
Cəlilova İmarət Cəlil qızı
Dadaşov Süleyman İgdalı oğlu
Əhmədova Aliyə Fərman qızı
Əkbərova Bilqeyiz İsmayıl qızı
Ələkbərova Sevinc İkram qızı
Əliyev Firudin İsmayıl oğlu
Əmrahova Samirə Adəm qızı
Gondolova Günay Hacısüleyman qızı
Heydərov Murad Paşa oğlu
Həbibli Samir Çingiz oğlu
Hənifəyeva Nigar Əli qızı
Həsənov Aqil Xəlgüllah oğlu
Həsənov Səyyad Qafar oğlu
Həsənova Şahirə Elbrus qızı
Hüseynov Zaman Salman oğlu
Hüseynova Günəş Kamal qızı
Xəlilova Elnarə Şəmxəlil qızı
Xəlilova Gülnarə Pərviz qızı
Xəlilova Rəna Həsənbala qızı
İsayev Rəhman Niftalı oğlu
İslamova Zahidə Kərəm qızı
İsmayılov Malik Hüseyn oğlu
İsmayılov Nofəl Şahmar oğlu
Kazımova Günel Mayıs qızı
Kazımova Sədaqət Şövkət qızı
Kərimxanova Telli Telman qızı
Qəribova Şəhla Heybət qızı
Quliyev Elməddin Əli oğlu
Quliyev Niyaməddin Əmir oğlu
Quluyev Elşən Əyyub oğlu
Lahıcov Natiq Rafiq oğlu
Məhərov İbrahim Kamran oğlu
Məhərrəmova Sevinc Nəriman qızı
Məhərrəmova Şəlalə Nazim qızı
Məmmədkərimova Tamara Bəşir qızı
Məmmədov Anar Fizuli oğlu
Məmmədov Firqət Siracəddin oğlu
Mənəfova Rəqibə Dursun qızı
Musayeva İzzətxanım Seyfəddin qızı
Mustafayeva Rəhilə Cənnət qızı
Namazov Vüqar Bəhmən oğlu
Nəzərova Viktoriya Nəzərovna
Rzayeva Rəna Xəlil qızı
Rzayeva Ziba Ziyəddin qızı
Səfərov Seyran Əmən oğlu
Tağıyev Vahid Müzəffər oğlu
Tağıyeva Ziniyət Vəli qızı
Talıbova Xuraman İman qızı
Vəliyev Ramin Məsim oğlu
Vəzirova İradə Azər qızı
Zeynalova Ayna Əjdər qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 oktyabr 2019-cu il*

## Azərbaycan Respublikasının təhsil işçilərinə “Əməkdar müəllim” fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə aşağıdakı təhsil işçilərinə “Əməkdar müəllim” fəxri adı verilsin:

Abdullayev Şaban Bəşir oğlu
Abdullayeva Lalə Sabir qızı
Abışov Nasim Əjdər oğlu
Ağacanov Hörmət Camirzə oğlu
Ağayeva Esmira Azər qızı
Axundov Qədir Bəhlul oğlu
Alışov Alış Musa oğlu
Alıyeva Ulduzə Qədir qızı
Bağırova Səhnə Novruzəli qızı
Bayramov Zakir Gülbala oğlu
Bayramova Məryət Abdurəhman qızı
Dadaşov Məhəbbət Vahub oğlu
Ellazov Fazil Cavad oğlu
Əfəndiyeva İradə Ağaəli qızı
Əfəndiyeva Yeganə Cavanşir qızı
Əhədova Aybəniz Babaxan qızı
Əhmədova Səidə Sabir qızı
Əhmədova Şükufə Qəşəm qızı
Ələkbərov Azər Fikrət oğlu
Əliyev Hacıağa Yaqub oğlu
Əliyev Nazir Səlim oğlu
Əliyeva Nigar Kamil qızı
Əliyeva Səmagül Əsgər qızı
Əlizadə Sevda Cavanşir qızı
Əsgərli Sevda Yadulla qızı
Əsgərov Valeh İsa oğlu
Əzimzadə Yaqut Mustafa qızı
Fərzəliyev Yusif Xanlar oğlu
Fəttahova Lətifə Hacı qızı
Hacıyev Eyvaz Mirhüseyn oğlu
Hacıyeva Elmira Cəfər qızı
Hacıyeva Əsmər Əskər qızı
Heydərova Yulduz Fərrux qızı
Həsənov Əlipənah Sultanağa oğlu
Həsənova Ərkinaz Paşa qızı
Həsənova Nazənin Rza qızı
Hüseynov Rahim Həsən oğlu
Hüseynova Sevinc Tahir qızı
İbadova Bibixanım Orucəli qızı
İsayeva Eliza Barat qızı
İsmayılov Pənah İsmayıl oğlu
İsmayılov Yaşar Sahib oğlu
İsmayılova Mafizə Balabəg qızı
Qurbanova Nəzmiyyə Həmzə qızı
Mahmudov Vaqif Həsən oğlu
Mahmudova Cəmilə Tapdıq qızı
Məmmədov Rövşən Kamil oğlu
Məmmədova Sevinc Muxtar qızı
Məmmədova Zübalə Rza qızı
Möhsümova Aybəniz İlyas qızı
Musayev Mahmud Musa oğlu
Mustafayeva Fatma Xəlil qızı
Mustafayeva Nailə Tahir qızı
Ramazanova Almaz Ziyad qızı
Rəhimov Kamran Osman oğlu
Rüstəmova Saçlı Tahir qızı
Sadıqov Əli Bəhrəm oğlu
Salmanov Çingiz İsa oğlu
Seyfullayeva Jalə Adəm qızı
Səfərova Gülnarə Sabir qızı
Səlimova Arzu İzzətulla qızı
Süleymanova Fatimə Hüseynbala qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 oktyabr 2019-cu il*

## Hikmət HACIYEV: “Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşü mühüm əhəmiyyətə malikdir”



“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Soçi şəhərində işgüzar səfərdədir. Səfər çərçivəsində dövlət başçısının Rusiya Prezidenti ilə görüşü oldu. Görüşdə dövlət başçıları qeyd etdilər ki, Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf edir. Ölkələrimiz arasında etibarlı və mehriban dostluq, qonşuluq münasibətləri mövcuddur. Bu, əlaqələrimizin hərtərəfli inkişafına münbit şərait yaradır”.

Bu fikirləri AZƏRTAC-a məxsusi açıqlamasında Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Şöbə müdiri qeyd edib ki, Azərbaycan-Rusiya münasibətlərinin dinamik inkişafında dövlətlərimizin başçıları arasındakı təmasların müstəsna rolu var. Keçən il iki ölkənin dövlət başçılarının dörd qarşılıqlı səfəri və bu çərçivədə görüşləri olub. Bunlar da əməkdaşlığımızın inkişafında mühüm rol oynayır. Bu ilin aprel ayında isə Pekində ikinci “Bir kəmər, bir yol” forumu çərçivəsində Azərbaycan və Rusiya prezidentlərinin görüşü olub. Azərbaycan və Rusiya prezidentlərinin Soçidə keçirilən görüşündə ölkələrimiz arasında siyasi əlaqələrin inkişafı qeyd olunmaqla yanaşı, bir sıra praktik sahələrdə əlaqələrimizin daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb. Bu xüsusda müxtəlif sahələrdə əməkdaşlığı ehtiva edən yol xəritəsi sənədləri diqqətə çatdırılıb.

Ölkələrimiz arasındakı iqtisadi-ticarət əlaqələrindən danışan Hikmət Hacıyev qeyd edib ki, ticarət dövriyyəsinin dinamik artımı göz önündədir. Bu, Azərbaycandan Rusiyaya, Rusiyadan isə Azərbaycana olan ixracda özünü göstərir. Ölkələrimiz həmçinin neft-qaz sektorunda da yaxından əməkdaşlıq edirlər.

Görüşdə əlaqələrimizin inkişafında Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının rolu da xüsusi qeyd olundu. Bildirildi ki, Hökumətlərarası Komissiyanın fəaliyyəti ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişlənməsində mühüm rol oynayır.

Söhbət zamanı dövlət başçıları tərəfindən humanitar sahədə də əlaqələrin inkişafı qeyd edilib. Dövlətimizin başçısı Azərbaycanda rus dilinə xüsusi qayğı olduğunu diqqətə çatdırıb. Tədrisin rus dilində aparıldığı məktəblərlə yanaşı, ali məktəblərdə də rus dilində tədris aparılır. Bu da iki ölkə arasındakı əlaqələrin inkişafının növbəti daha mühüm göstəricisidir.

Şöbə müdiri vurğulayıb ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair müzakirələr aparılıb. Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi münaqişənin həlli prosesində yaxından iştirak edir.

Hikmət Hacıyev qeyd edib ki, görüşdən sonra da dövlət başçılarının təkbətək görüşü oldu. Azərbaycan və Rusiya prezidentləri gündəlikdəki məsələlərə dair müzakirələrini davam etdirdilər. “Hesab edirəm ki, bu görüş iki ölkə arasındakı münasibətlərin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir və əlaqələrimizin gələcək inkişafına əsaslı töhfə verəcək” deyə Prezident Administrasiyasının rəsmisi əlavə edib.

“Valday” Beynəlxalq Diskussiya Klubunun əhəmiyyətindən bəhs edən Hikmət Hacıyev bildirib ki, bu platforma beynəlxalq münasibətlərin aktual məsələlərinin müzakirəsi baxımından olduqca önəmlidir. Bu tədbirdə dövlət və hökumət başçıları, ekspertlər, biznes və akademik dairələrin nümayəndələri iştirak edirlər.

Bu platforma dövlətimizin başçısı tərəfindən Azərbaycan Respublikasının beynəlxalq əlaqələrin gündəliyindəki vacib məsələlərə münasibətdə mövqeyinin ifadə olunması üçün olduqca mühüm imkan yaradır.

## Milli Məclisdə gənc müəllimlərin mükafatlandırılması mərasimi keçirilib

Oktyabrın 3-də Milli Məclisin Gənclər və idman komitəsi, Azedu.az təhsil portalı və “Gənc müəllim” şəbəkəsinin birgə təşkilatçılığı ilə orta ümumtəhsil müəssisələrinin müəllimləri arasında keçirilən “İlin gənc müəllimi” müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, parlamentin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, müsabiqənin məqsədi təhsil sahəsində faydalı işlər görən ən yaxşı müəllimləri üzə çıxarmaq, onların fəaliyyətlərini qiymətləndirmək, dövlətin bu istiqamətdə verdiyi təminatları bir daha göstərməkdir. Müsabiqə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunub. Bu, artıq ikinci belə müsabiqədir. Birinci müsabiqə ötən il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi ilə əlaqədar təşkil olunub.

Komitə sədri müəllim peşəsinin cəmiyyətdə rolu barədə danışaraq, müəllimlərin üzərinə düşən məsuliyyəti qeyd edib. Bildirib ki, müəllimlərin qarşısında gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmaq, onlara bilik və bacarıqları aşılamaq, cəmiyyət üçün savadlı, yüksək mənəviyyatlı, vətənpərvər şəxsiyyət yetişdirmək kimi böyük vəzifələr durur.

Vurğulanıb ki, ölkəmizdə təhsil sahəsində çalışanlara dövlət səviyyəsində hər zaman diqqət və qayğı ilə yanaşılıb, müəllim əməyi yüksək qiymətləndirilib, bu peşə sahiblərinə böyük hörmət bəslənilib. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsinin inkişafı istiqamətində bir çox tədbirlər həyata keçirilir. Bu istiqamətdə dövlət proqramları qəbul edilib. Bu proqramlar təhsilimizi dünya standartları səviyyəsində qurmağa imkan yaradır.

Qeyd edilib ki, təhsil sahəsində həyata keçirilən islahatlara Milli Məclis də öz layiqli töhfəsini verir. Bu istiqamətdə qanunvericilik bazasının təkmilləşdirilməsi işi uğurla həyata keçirilir. “Gənclər siyasəti haqqında”, “Təhsil haqqında”, “Ali təhsil haqqında”, “Peşə təhsili haqqında” və digər bu kimi qanunlar qəbul olunub.

Deputatlar Şahin İsmayılov, Cavid Osmanov, Sevinc Hüseynova, Elşən Musayev öz çıxışlarında bildiriblər ki, son illər ölkəmizdə müəllimlərin peşəkarlıq səviyyəsinin və nüfuzunun artırılması istiqamətində məqsədyönlü tədbirlər görülür. Xüsusilə ucqar bölgələrdə yerləşən məktəblərin şəraiti və kadr təminatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Bu nailiyyətlərin əldə olunmasında bu gün Heydər Əliyev Fondu öz layiqli dəstəyini verməkdədir. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələr bu prosesdə xüsusi önəm daşıyır.

Toplantıda iştirak edən Təhsil Nazirliyinin nümayəndəsi Elnur Məmmədov, Bakı Şəhər Təhsil İdarəsinin təmsilçisi Bəşarət Məmmədov, Azedu.az portalının direktoru Elşad Eyvazlı bu cür müsabiqələrin təşkilinin əhəmiyyətindən söz açıblar. Onlar son dövrdə təhsil sahəsində görülən işlərdən, əldə olunan keyfiyyət dəyişikliklərindən bəhs edib, müasir dövrdə müəllimlərin üzərinə düşən vəzifələri diqqətə çatdırıblar.

Görüşdə gənc müəllimlər Ehtiram Safquliyev, İlahə Həmidova, Pərvin Əşari, Mətanət Kərimova, Aynur İbrahimova, Şəbnəm Uğurlu, Elvin Bəkirov, Kəmalə Səmədova, Həbib Əlizadə, Elçin Abbasov, Nərmin Məmmədova öz uğur hekayələrindən danışıb, dövlət tərəfindən onlara göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Sonra müsabiqənin qalibləri mükafatlandırılıb.

## Milli Məclisdə BMT-nin İnsan Hüquqları Şurasının qida hüququ üzrə xüsusi məruzəçisi ilə görüş olub

Oktyabrın 3-də Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov ölkəmizdə səfərdə olan BMT-nin İnsan Hüquqları Şurasının qida hüququ üzrə xüsusi məruzəçisi xanım Hilal Elver ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Eldar İbrahimov qonaqlara Milli Məclisin strukturu, Aqrar siyasət komitəsinin gördüyü işlər, aqrar sahədə qəbul edilmiş qanunlar barədə məlumat verib. Bildirilib ki, ölkəmizdə qida təhlükəsizliyinin təmin olunması məqsədilə Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. Hazırda komitədə “Qida təhlükəsizliyi haqqında” qanun layihəsi üzərində iş aparılır. Ölkəmizə genetik modifikasiya olunmuş məhsulların idxalı qadağan edilib. Azərbaycanda yalnız ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsal edilir.

Komitə sədri diqqətə çatdırıb ki, Prezident İlham Əliyev kənd təsərrüfatına xüsusi qayğı ilə yanaşır və hər il kənd təsərrüfatının inkişafına ayrılan dövlət vəsaitinin artırılması bunun bariz nümunəsidir. Kənd təsərrüfatının inkişafı məqsədilə onun müxtəlif sahələrinə dövlət tərəfindən subsidiyalar ayrılır. Sumqayıtda tikilmiş karbamid zavodunun istehsal etdiyi gübrə nəinki ölkəmizi təmin edir, həm də xarici ölkələrə satılır. Hazırda kənd təsərrüfatı vergilərdən azaddır. Yalnız cüzi olaraq torpaq vergisi alınır. Bu da ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalının ilbəil artmasına səbəb olur.

Hilal Elver bildirib ki, Azərbaycanın neft və qaz sahəsindən sonra kənd təsərrüfatının inkişaf etdirilməsini qarşıya məqsəd qoyması sevindirici haldır. Azərbaycan zəngin təbii ehtiyatlarına arxalanaraq öz vətəndaşlarını təmin etmək resurslarına malik ölkədir. Qonaq Azərbaycanda gənclərin kənd təsərrüfatı ilə məşğul olmağa həvəsləndirilməsi üçün görülən işləri yüksək qiymətləndirib.

Söhbət zamanı tərəfləri maraqlandıran suallara aydınlıq gətirilib.

Görüşdə Milli Məclisin deputatları Tahir Süleymanov, Mahir Aslanov, Cavanşir Paşazadə, İqbal Məmmədov, Aydın Hüseynov, Elçin Quliyev və Eldəniz Səlimov iştirak ediblər.

# YAP-ın Gəncə şəhər, Kəlbəcər və Xocalı rayon təşkilatlarının ərazi ilk təşkilat sədrlərinin iştirakı ilə müşavirə keçirilib

Oktyabrın 3-də Yeni Azərbaycan Partiyasının Gəncə şəhər, Kəlbəcər və Xocalı rayon təşkilatlarının ərazi ilk partiya təşkilatlarının sədrləri və partiya fəallarının iştirakı ilə müşavirə keçirilib.




Gəncə şəhər Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Baş Nazirin müavini, YAP sədrinin müavini Əli Həsənov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov, Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Aqil Məmmədov, Milli Məclisin deputatları Naqif Həmzəyev, Pərvin Kərimzadə, Elman Məmmədov, Musa Quliyev, Nazirlər Kabinetinin məsul işçisi Ramin Talıbov və YAP Mərkəzi Aparatının məsul işçisi Araz Xudadanov iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Sonra tədbir iştirakçıları Ulu Öndərin keçdiyi şərəfli həyat yolunu və çoxşaxəli fəaliyyətini əks etdirən Heydər Əliyev Muzeyi ilə yaxından tanış olublar.

Müşavirə iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Baş Nazirin müavini, YAP sədrinin müavini Əli Həsənov çıxış edərək müstəqil Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu rəhbər tutan Prezident İlham Əliyevin dövlətçiliyin möhkəmləndirilməsi, xalqın firavan həyat şəraitinin inkişaf etdirilməsi naminə daim milli və dövləti maraqlardan çıxış etdiyini bildirib.

Yeni Azərbaycan Partiyasının sıralarında 750 minə yaxın Azərbaycan vətəndaşının birləşdiyini diqqətə çatdıran Əli Həsənov qarşıda duran məqsədin 27 il əvvəl yaradılan partiyanın şəhər və rayon təşkilatlarının ilk təşkilatlarının fəaliyyətinin daha səmərəli olmasını təmin etmək olduğunu deyib.

Baş Nazirin müavini ölkənin inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğuna toxunaraq sosial şəbəkələrdə ölkəmizə qarşı qarayaxma kampaniyasının aparıldığını vurğulayıb. Əli Həsənov bildirib ki, Yeni Azərbaycan Partiyasının üzvləri ölkəmizin qazandığı nailiyyətlərin geniş təbliği işini fəal şəkildə aparmalı, ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətlərini cəmiyyətimizdə ifşa etməlidirlər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxışında Ulu Öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası - dünənin, bugünün, gələcəyin partiyasıdır" fikrini xatırladaraq qeyd edib ki, fəaliyyət göstərdiyi 27 il ərzində vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasında müstəsna xidmətləri nəticəsində partiya Azərbaycan dövlətinin müstəqilliyinin qarantına çevrilib. Niyazi Bayramov vurğulayıb ki, bu gün müstəqil Azərbaycanın etibarlı gələcəyinin möhkəm, sarsılmaz əsaslarının arxasında Ümummilli Lider Heydər Əliyevin məqsədyönlü siyasəti dayanır.

YAP Gəncə şəhər təşkilatının sədri, Milli Məclisin deputatı Naqif Həmzəyev çıxışında Prezident İlham Əliyevin sədri olduğu YAP-ın bu gün qarşımızda xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, dövlət müstəqilliyinin qorunub saxlanılmasında yaxından iştirak etmək kimi vəzifələr qoyduğunu bildirib. YAP Gəncə şəhər təşkilatının böyük inkişaf yolu keçdiyini qeyd edən Naqif Həmzəyev bildirib ki, bu gün ətrafında 43 min partiya üzvünü birləşdirən təşkilat qarşıya qoyulan vəzifələrin icrasını ləyaqətlə yerinə yetirir. Sevindirici haldır ki, təşkilatın üzvlərinin 55,4 faizini gənclər, 62,1 faizini isə qadınlar təşkil edir.

Tədbirdə, həmçinin YAP Xocalı rayon təşkilatının sədri Vahid Əliyev, YAP Kəlbəcər rayon təşkilatının Aparat rəhbəri Qənaət Əsgərov çıxış ediblər.

Müşavirədə ictimai-siyasi proseslərdə ərazi ilk partiya təşkilatlarının, partiya fəallarının üzərinə düşən vəzifələr müzakirə olunub, müvafiq tövsiyə və tapşırıqlar verilib.

Sonda YAP sıralarına yeni qoşulmuş bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub.

# "Bakı Metropoliteni" QSC-nin təlim-tədris mərkəzi istifadəyə verilib





Oktyabrın 3-də "Bakı Metropoliteni" QSC-nin təlim-tədris mərkəzinin əsaslı təmirdən sonra açılışı olub.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən mərasimdə Təhsil naziri Ceyhun Bayramov, ali təhsil ocaqlarının rəhbər nümayəndələri, "Azərbaycan Dəmir Yolları" QSC-nin aidiyyəti sahə üzrə rəhbər və mütəxəssis heyəti, "Bakı Metropoliteni" QSC-nin əməkdaşlıq etdiyi təşkilat və müəssisələrin rəhbərləri, o cümlədən Fransanın "Thales" şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Mehmet Şahan, texniki direktoru Mixail Malinovski, "Siemens Azerbaijan"ın rəhbəri Azər Quliyev və digər rəsmi şəxslər iştirak ediblər.

"Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynov binada böyük təmir və yenidənqurma işləri aparıldığını, burada texniki kabinet, auditoriyalar, ən əsası tədris guşələrinin yaradıldığını deyib. O, mərkəzin giriş və dəhlizlərində xronoloji ardıcıllıqla metro tarixinin əks olunduğunu, stendlərin Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin metropolitenin inkişaf tarixindəki missiyalarını əyani şəkildə nümayiş etdirdiyini diqqətə çatdırıb.

Z.Hüseynov metropolitendə tətbiq edilən texnoloji yeniliklərin mənimsənilməsində, yeni sahələr üzrə kadrların hazırlanmasında mərkəzə tələbatın artdığını və bu səbəbdən yeniliklərin zəruri tələbə çevrildiyini də vurğulayıb. O, "Thales" şirkətinin "Bənövşəyi xətt"də tətbiq etməyə başladığı SCADA və CBTC, TETRA rabitə sistemlərinin öyrənilməsi və bu xüsusda yeni kadrlara böyük ehtiyac olduğunu buna nümunə kimi göstərib. Hazırda Azərbaycan-Fransız Universitetinin (UFAZ) tələbələrinin praktiki məşğələləri də məhz metropolitenin istismar sahələri və tədris mərkəzində keçirilir. Sədr metropolitendə elektrik yarımstansiyalarının yenidən qurulmasında "Siemens", eskalatorların dəyişdirilməsində "Thyssen Krupp" şirkətləri ilə əməkdaşlıq perspektivlərinə toxunaraq mərkəzdə bu müəssisələrin vəsait və stendlərinin də əhəmiyyətli əyani tədris vəsaiti olduğunu bildirib.

QSC sədri Bakı Metropolitendə yeni tipli qatar tərkiblərinin sayının 11-ə çatdığını qeyd edərək maşinistlərin də yenidən ixtisaslaşdırılması, yeni nəsil maşinistlərin hazırlığına başlanıldığını deyib, Rusiyanın "Loqos" şirkətinin mərkəzdə "81-765" tipli baş vaqonun bazasında quraşdırdığı trenajorun əhəmiyyətindən bəhs edib. O, metro inşaatında tətbiq edilən "Herrenknecht" tunelqazma kompleksinin, həmçinin metropolitenin istehsalat sahəsində Almaniyanın "Vollert" şirkətinin texnologiyaları əsasında qurulmuş sexdə Azərbaycanda ilk dəfə ağac şpalları əvəz edən dəmir-beton blokların istehsalının təşkilini, yolun yeni tipli üstquruluşu elementlərinin tətbiqini qeyd edərək mərkəzin bu texnoloji yeniliklərin tələblərinə uyğun kadrları bundan sonra daha müasir qaydada hazırlayacağını deyib.

2014-cü ildən metropoliten üçün zəruri olan peşələr üzrə ixtisasartırma və yeni peşələrə yiyələnmə kurslarına hər il orta hesabla 800-900 işçinin cəlb edildiyini, imtahanların test üsulu ilə elektron qaydada aparıldığını diqqətə çatdıran Z.Hüseynov UFAZ ilə yanaşı, Dövlət Neft və Sənaye, Memarlıq və İnşaat, Texniki universitetlərlə, həmçinin Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ilə səmərəli və sıx əməkdaşlığın bundan sonra daha intensiv və qarşılıqlı faydalı şəkildə aparılacağına əminliyini ifadə edib.

Sonra metro tarixi, tətbiq edilən yeniliklərə həsr olunmuş qısametrajlı filmin təqdimatı olub.

Təhsil naziri Ceyhun Bayramov həm ölkə, həm də metropoliten tarixində tədris prosesinin yeni innovasiyalarla müşayiət olunması baxımından belə bir mərkəzin açılmasını təqdirəlayiq addım kimi qiymətləndirib. O, bu xüsusda "Bakı Metropoliteni" QSC-nin müvafiq ali təhsil müəssisələri ilə əməkdaşlıq perspektivlərinin daha da genişlənəcəyini, tələbələrin müxtəlif sahələr üzrə yeni interaktiv təlimlərlə kursların məhz bu tədris ocağında keçirilməsinin gələcək peşəkar kadrların yetişdirilməsində böyük rol oynayacağına əmin olduğunu bildirib və mərkəzə yeni nailiyyətlər arzulayıb.

Mərasim iştirakçıları mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olublar. Hər guşədə mütəxəssislər müvafiq sahələrdəki yeniliklər və təlim-tədris prosesinin təşkilində diqqət yönəldiləcək məqamlar barədə ətraflı məlumat veriblər.

Qeyd edək ki, metropolitenin təlim-tədris mərkəzinin binası 1926-cı ilin sentyabrın 24-də SSRİ-nin ilk elektrik dəmir yolu nəqliyyatı olan Sabunçu vağzalının elektrik deposu kimi istismara verilib. 1966-cı ildə Bakı Şəhəri Zəhmətkeş Deputatları Sovetinin İcraiyyə Komitəsinin sərəncamı ilə tikili Bakı Metropoliteninin balansına keçib və burada qatarların hərəkətinin təşkili və idarə edilməsi üzrə ən mühüm xidmətlərin dispetçer mərkəzləri fəaliyyət göstərib. 2014-cü ildə dispetçer mərkəzləri yeni inşa edilmiş texnoloji korpusa köçürülərək həmin il sentyabrın 16-da burada təlim-tədris mərkəzi fəaliyyətə başlayıb.

# Beynəlxalq miqyasda ehtiramla qarşılanan siyasət

*Əvvəli 1-ci səh.*

Bununla yanaşı, Prezident İlham Əliyevin ən mötəbər tədbirlərə dəvət olunması, aparıcı dövlətlərin rəhbərləri, dünyada nüfuzlu ictimai-siyasi xadimlər və digər şəxslər ilə görüşləri bir daha həm cənab İlham Əliyevin, həm də Azərbaycanın yüksək nüfuzunun göstəricisidir. Misal olaraq bu ilin aprelində "Bir kəmər, bir yol" İkinci Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak etmək üçün Çinə səfər edən Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşünü göstərə bilərik. Bu tarixi görüşdə Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu daxili və xarici siyasət həyata keçirdiyini, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artdığını, Azərbaycanda sabitliyin təmin olunduğunu, xalqımızın rifah halının yüksəldiyini, iqtisadi sahədə inkişafa nail olunduğunu bildirdi. Bir daha xatırladaq ki, bu tədbirə Cənubi Qafqazdan yalnız Prezident İlham Əliyev dəvət olunmuşdu.

Prezident İlham Əliyevin dünyanın məşhur "beyin mərkəzləri"ndən biri olan "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar iclasına dəvət olunması, habelə keçirilməsi nəzərdə tutulan çoxsaylı yüksək səviyyəli görüşlər də dövlət başçımıza dünyada olan böyük hörmətin göstəricisidir.

"Valday" Beynəlxalq Diskussiya Klubu 2004-cü ildə yaradılıb. Klubun ilk konfransı Rusiyanın Veliki Novqorod şəhərində, Valday gölünün sahilində keçirilib. Elə klub adını da buradan götürüb. Ötən illər ərzində dünyanın aparıcı ekspertlərinin görüş yerinə çevrilmiş klub öz tədqiqatlarında qlobal siyasət və iqtisadi proseslərin araşdırılmasına xüsusi yer verir. İndiyədək klubun işinə 74 ölkədən dünya elmi birliyini təmsil edən 1000-dən çox nümayəndə, o cümlədən Harvard, Kolumbiya, Corctaun, Stenford, Karlton, Sarbona, London, Qahirə, Tehran, Tokio, Təl-Əviv və digər universitetlərin tanınmış professorları qatılıb. Finlandiya, Çexiya, Avstriya, Fransa, İtaliya, İran, CAR və digər ölkələrin prezidentləri və baş nazirləri "Valday" klubunun qonağı olublar. Rusiya Prezidenti Vladimir Putin klub yarandığı vaxtdan hər il diskussiyaların iştirakçıları ilə görüşür və ətraflı fikir mübadiləsi aparır. Onu da bildirək ki, digər ölkələrin rəhbərləri bu tədbirlərə məhdud sayda dəvət olunur. Hazırda keçirilən tədbirdə bir neçə ölkənin rəhbəri iştirak edir.

Başlıca məqsədlərindən biri dünya sisteminin böhrandan çıxarılmasına dair qərarlar qəbul etmək üçün intellektual elitanın bir araya gətirilməsi olan klub beynəlxalq münasibətlər, qlobal siyasət, iqtisadiyyat, təhlükəsizlik, energetika, sosiologiya və digər sahələrdə aparıcı ekspertlərlə əməkdaşlıq edir. Klub Asiya, Yaxın Şərq, Avratlantika dialoqları kimi regional konfranslar da təşkil edir.

Beləliklə, müxtəlif məzmunlu və formatlı tədbirlər olmalarına baxmayaraq, Avrasiya İqtisadi İttifaqının sammiti və "Valday" Beynəlxalq Diskussiya Klubu məlum həqiqətlərə yenidən aydınlıq gətirdi. Avrasiya İqtisadi İttifaqının sammiti bir daha təsdiqlədi ki, Paşinyan siyasi elita tərəfindən siyasətçi və ya ciddi hökumət başçısı kimi qəbul olunmur. Bunun səbəbi isə onun yürütdüyü qeyri-konstruktiv siyasət, bölgədə və dünyada mövcud olan reallıqları bilməməsi və ya nəzərə almamasıdır. Ermənistan mediası, ekspertləri də etiraf edirlər ki, elə buna görə də son illər Ermənistan olan-qalan nüfuzunu da itirir.

Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubuna dəvət olunması isə Azərbaycan dövlətinin həyata keçirdiyi müstəqil siyasətin dünyanın güc mərkəzləri və böyük ölkələri tərəfindən hörmətlə qarşılanması və qəbul edilməsinin əyani təsdiqidir. Ən əsası, bu, Prezident İlham Əliyevin şəxsiyyətinə və yürütdüyü siyasətə beynəlxalq səviyyədə göstərilən yüksək ehtiramın göstəricisidir. Bütün bunların nəticəsi olaraq dünya birliyi Azərbaycana böyük hörmət və rəğbətlə yanaşır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Sahibkarlar etimadı doğruldur

*Əvvəli 1-ci səh.*

Biz sahibkarlara hər il bu cür dəstək göstəririk və göstərəcəyik. Sahibkarlara daha böyük kömək göstərmək üçün indi bir çox ölkələrə ixrac missiyaları təşkil olunur... İnvestisiya təşviqi mexanizminin işə düşməsi də çox ciddi islahat idi. Bu proqram 333 layihəni əhatə edir. Onlardan 107-si 2018-ci ildə icra edilib. İnvestisiya təşviqi proqramı çərçivəsində həyata keçirilən layihələrin dəyəri 2,8 milyard manatdır".

Aparılan islahatların əsas hədəflərindən biri də qeyri-neft sektorunun inkişafıdır. Bu məqsədlə sahibkarlara bir sıra güzəştlər edilir. Sənaye zonalarının, sənaye məhəllələrinin, sənaye parklarının yaradılması geniş vüsət alıb. Ölkənin paytaxtı ilə yanaşı Sumqayıt, Gəncə, Mingəçevir və digər şəhərlərdə də bu proses həyata keçirilir. Bugünə qədər sənaye parklarımızda 67 rezident qeydiyyatdan keçib, onlardan 40-ı fəaliyyət göstərir. Sənaye parklarında həyata keçirilən layihələrə 5 milyard manatdan çox kapitalın qoyulması nəzərdə tutulub.

Ümumilikdə isə regionlarda yaradılmış 9 sənaye parkı və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident hazırda fəaliyyət göstərir. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən indiyədək 5,7 milyard manatı faktiki olaraq yatırılıb. Qeyd edək ki, bu sahəyə yatırılan kapital özünü doğruldub. Belə ki, həmin layihələrin icrası nəticəsində 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlığı ixrac edilib.

İstər texnoparklarda, istərsə də aqroparklarda dövlət vəsaiti onun mükəmməl infrastrukturunun yaradılmasına yönəldilir. Yəni sahibkarlar qaz, su, işıq, kanalizasiya, yol və digər infrastruktur olan ərazidə iş qururlar. Bununla yanaşı, onlara digər güzəştlər də olunur. Həmin sahələrdə fəaliyyət göstərən sahibkarlar gətirdikləri avadanlıqlara görə gömrük rüsumu ödəmir, 5 il ərzində vergini 50 faizlə ödəyirlər.

Məlumdur ki, qeyri-neft sektorunda məşğul əhalinin və coğrafiyanın böyüklüyünə görə birinci yerdə kənd təsərrüfatı durur. Dövlət həm ərzaq təhlükəsizliyini təmin etmək, həm də regionda yaşayan əhalinin məşğulluğunu artırmaq üçün bu sahəyə də kapital qoyuluşu həyata keçirilir. Ölkədə 51 aqroparkın yaradılması istiqamətində çox iş görülüb. Hazırda 22 aqropark fəaliyyət göstərir, ilin sonuna kimi daha 11 aqroparkın fəaliyyətə başlaması nəzərdə tutulur. Bu layihələrin icrası nəticəsində ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaq.

Regionlarda həyata keçirilən investisiya təşviqi siyasəti də öz müsbət nəticəsini verir. Bunun sayəsində bölgələrdə sahibkarlıq inkişaf edir, məhsul istehsalı artır, əhalinin işlə təminatı yaxşılaşır. Bugünədək regionlarda 400-ə qədər layihə təşviq olunub və onların nəticəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub. Sözsüz ki, bu sahəyə sərmayə yatıran sahibkarlara da xüsusi güzəştlər edilir. Bu da bölgələrdə sahibkarlığın inkişafına öz müsbət təsirini göstərir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-avqust aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 8627,2 milyon manat vəsait yönəldilib. Həmin dövrdə neft-qaz sənayesinə yatırılan sərmayələr azalsa da, qeyri-neft sektoruna yönəldilən vəsaitin həcmi 5,7 faiz artıb. Ümumi sərmayənin 48 faizi dövlət, 52 faizi qeyri-dövlət, yəni sahibkarlara məxsus olub. Bu onu göstərir ki, dövlətin qayğısı sayəsində sahibkarlıq yüksək səviyyədə inkişaf edib və kapital qoyuluşunda öndədir.

Aparılan iqtisadi islahatlar, ölkənin dinamik inkişafı statistik rəqəmlərdə də özünü göstərir. Cari ilin birinci yarısında ölkə iqtisadiyyatı 2,4, qeyri-neft sektoru 3,2, qeyri-neft sənayesi 15,7 faiz, ticarət dövriyyəsi 20 faizdən çox, qeyri-neft ixracı 15, kənd təsərrüfatı məhsullarının istehsalı 13 faiz artıb.

Cari ilin yanvar-avqust aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunan mallar və göstərilən xidmətlər 2 faiz artaraq 30,9 milyard manat təşkil edib. Ötən ilin eyni dövrü ilə müqayisədə qeyri-neft sektorunda məhsul istehsalı 15,2 faiz artıb. Həmin dövrdə sənayedə özəl sektorun payı 82 faizə çatıb. Bu da qeyri-neft sektorunda sahibkarların lider olduğunu bir daha təsdiq edir.

Azərbaycanda həyata keçirilən islahatlar, ölkəmizin iqtisadi sahədə qazandığı uğurlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən daim yüksək qiymətləndirilir. Belə ki, ölkəmiz Dünya Bankının nüfuzlu "Doing Business 2020" hesabatında ən islahatçı 20 ölkə sırasına daxil edilib.

Hesabata əsasən, Azərbaycan "Doing Business" üzrə dörd sahə üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı asanlaşdırıb. Bu sahələr əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların hüquqlarının qorunması və müqavilələrin icrasının təmin edilməsidir.

Hesabatda qeyd edilir ki, paytaxtın kadastr xəritəsinin tərtib olunması və Bakıdakı hər bir fərdi torpaq sahəsinin qeydiyyatı, eləcə də mövcud sənədləşdirmənin təkmilləşdirilməsi və daşınmaz əmlak prosedurlarının çevikliyi nəticəsində onların qeydiyyat prosesi daha da sürətlənib. Minoritar investorların hüquqlarının müdafiəsi tərəflərin imzaladığı əlverişsiz sazişlər üzrə məsuliyyətin direktorlar üzərinə qoyulmasından sonra güclənib. Kommersiya ilə bağlı mübahisələr yarandıqda tərəflər onlayn olaraq müraciət göndərə və vasitəçilik etmək üçün maddi stimul əldə edə bilərlər.

Xatırladaq ki, Azərbaycan "Doing Business 2019" hesabatında 32 pillə irəliləyərək ən islahatçı ölkələr sırasında 57-ci pillədən 25-ci yerə yüksəlmişdi. İndi isə ən islahatçı ölkə kimi 20-ci yeri tutması Azərbaycanın reytinqinin ildən-ilə daha da yüksəldiyini göstərir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Bakıda Alman Birliyi Günü qeyd edilib



Oktyabrın 3-də Almaniyanın Bakıdakı səfirliyi ölkənin milli bayramı - Alman Birliyi Günü münasibətilə rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, qəbulda əvvəlcə Azərbaycanın və Almaniyanın Dövlət himnləri səsləndirilib.

Səfir Volfqanq Maniq tədbirdə çıxış edərək Alman Birliyi Gününün tarixindən danışıb.

Azərbaycan ilə Almaniya arasında mövcud əlaqələrdən söhbət açan səfir deyib ki, Almaniya Bakıda səfirlik açan ilk ölkələrdən biridir. 1992-ci ildən bugünədək biz iki ölkə olaraq çox nailiyyətlər qazanmışıq. Azərbaycanda Almaniyanın bir çox elmi-mədəni mərkəzləri fəaliyyət göstərir. Bütün bunlar ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Diplomat bu əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu bildirib. Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev əlamətdar gün münasibətilə alman xalqını Azərbaycan Hökuməti adından təbrik edib. O deyib ki, bir çox beynəlxalq məsələlərdə Azərbaycanın və Almaniyanın mövqeləri üst-üstə düşür. Bu da iki ölkə arasında yüksək səviyyəli əlaqələrin olduğunu göstərir. Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edirlər. Ticarət dövriyyəsində müsbət dinamika var. Azərbaycan və Almaniya təhsil, enerji, humanitar və digər sahələrdə yaxşı əlaqələrə malikdirlər.

Qəbulda rəsmi şəxslər, deputatlar, diplomatlar, media təmsilçiləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Səməd SEYİDOV: "AŞ PA təkcə avropalılardan ötrü deyil, həm də Avropa Şurasının hər bir üzv dövləti üçün əlindən gələni əsirgəməməlidir"

Strasburqda sentyabrın 29-dan oktyabrın 7-dək keçirilən Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) payız sessiyasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr üzrə komitəsinin sədri, Azərbaycanın AŞ PA-da daimi nümayəndə heyətinin rəhbəri Səməd Seyidov terrorizm qurbanlarının müdafiəsi mövzusunda məruzə ətrafında çıxış edib.

AZƏRTAC xəbər verir ki, S.Seyidov həmin mövzu ilə bağlı məruzəçiyə təşəkkür edərək deyib: "Bu, çox mükəmməl və mühüm məruzədir və bizim terrorçuluğun tərifini verdiyimiz bir vaxtda təqdim edilib. Hərçənd düşünürəm ki, bu tərifi tapmaq o qədər də çətin deyil. Terrorçuluq və terror aktları insanlıq üçün bir xərçəng şişidir. Biz Avropada yerləşirik və bu, Avropanın xəstəliyidir. Təəssüf ki, bu ölümcül xəstəliyin uyğun müalicəsini tapmaq olduqca çətindir".

Milli Məclisin deputatı öz çıxışında qeyd edib ki, uzun müddət universitet rektoru olub. O əlavə edib: "Mənim işlədiyim dövrdə Bakının mərkəzində, metroda törədilmiş terror aktı nəticəsində gənc qız sağ qolunu itirmişdi. Bu qolu ilə birlikdə o, bütün gözəlliyini, ümidini də itirdi, həyat onun üçün qorxunc oldu. Bilirsiniz, həmin qız təzminat tələb etmədi, həmkarlarından böyük dəstək istəmədi. O, ədalətin bərqərar olmasına can atırdı və hər dəfə mənim kabinetimə gələrək soruşurdu ki, nə vaxt bu barədə danışmaq imkanı olacaq".

Məruzəçiyə xitab edən S.Seyidov çıxışına davam edib: "Xanım məruzəçi, bir daha əla məruzəyə görə sizə təşəkkürümü bildirirəm. Düşünürəm ki, bu məruzə sayəsində həmin insanlar ədalətə nail ola biləcəklər. Mən sizin məruzənizi diqqətlə oxudum və onun daha bir mühüm aspektini qeyd etmək istərdim: bu sənədin ayrı-ayrı hallar üçün hazırlanmasına baxmayaraq, o, dövlətlər üçün çox mühümdür. Siz hər bir insanın terror qurbanı kimi əsas ehtiyaclarından danışırsınız. Lakin bu əsas ehtiyaclar dövlətlərə münasibətdə də tətbiq edilə bilər. Zənnimcə, AŞ PA təkcə avropalılardan ötrü deyil, həm də Avropa Şurasının hər bir üzv dövləti üçün əlindən gələni əsirgəməməlidir. Əgər biz dövlət terrorçuluğunu bütün dəqiqliyi ilə pisləyə bilməsək, onda AŞ PA-da fəaliyyətimizə də ehtiyac qalmır".

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycanda dünyanın ən mükəmməl nəqliyyat sistemi qurulur

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 25-də Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzinin (HUB) açılışında iştirak etdilər. Biz bir daha şahid olduq ki, bu açılış mərasimi də mahiyyət etibarilə ölkədə reallaşdırılan nəhəng layihələrin, vətəndaşların sosial rifahının, rahatlığının və təhlükəsizliyinin təmin edilməsinə yönələn mühüm tədbirlərin bir qisminə yekun vurulmasını özündə ehtiva edən tədbirdir.




Əgər siz bütün postsovet məkanındakı ölkələrin paytaxtlarını gəzsəniz, nəqliyyat xidmətlərinin səviyyəsi ilə maraqlansanız, Azərbaycandakı yenilikləri görməyəcəksiniz. İflic olmuş işğalçı Ermənistandan danışmağa dəyməz, dost Gürcüstana isə bizim səviyyəmizə çatmaq üçün onilliklər də bəs etməz. Digər paytaxtlardakı vəziyyəti də Bakı ilə müqayisə etmək qeyri-mümkündür.

Azərbaycanda aparılan islahatların miqyasına, bu sahəyə yatırılan sərmayələrə və reallaşdırılan layihələrə çox ölkə həsəd apara bilər. Ona görə ki, müasir dünyada nəqliyyat sistemləri bütün meqapolislərdə ciddi çətinliklər yaradır, bir çox məqamlarda isə həlli mümkün olmayan problemə çevrilir.

Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişmə nöqtəsi, Böyükşor qovşağı, eləcə də metronun "Koroğlu" stansiyasının yaxınlığındakı yeni Nəqliyyat Mübadilə Mərkəzi ilk HUB pilot layihəsi kimi 2016-cı ildə təşkil edildi, sonradan şəhər sakinlərinin təklifləri nəzərə alındı, əhalidən gələn müraciətlərlə əlaqədar "Koroğlu" HUB 2019-cu ildə əsaslı şəkildə yenidən quruldu, burada müasir nəqliyyat infrastrukturu yaradıldı.

Şəhərin nəqliyyat sisteminin inkişafına, müasirləşməsinə bütün ciddiliyi ilə yanaşan dövlət başçısının göstərişlərinə əsasən, Bakının əsas giriş-çıxış ərazilərində 5 böyük HUB təşkil edilmişdir. Eyni zamanda yaxın gələcəkdə şəhər və qəsəbələrdə nəqliyyat sisteminin mükəmməl fəaliyyəti üçün əlavə olaraq 6 kiçik HUB yaradılacaq.

Bütün bunlar onu göstərir ki, dövlət başçısı nəqliyyat parkının müasirləşdirilməsi, sərnişinlərin marşrut avtobuslarından təhlükəsiz və rahat istifadəsini təşkil etmək məqsədilə bir sıra layihələrin davamlı icrasına start vermişdir. Bu yeniliklərin ana xəttini və ya özülünü ictimai nəqliyyat sistemində yenilik olan Nəqliyyat Mübadilə mərkəzlərinin yaradılması təşkil edir. Bakı sahil boyu yerləşən mürəkkəb relyefə malik şəhər olduğu üçün stabil və rahat işləyən nəqliyyat sistemini qurmaq o qədər asan deyil. Bütün böyük şəhərlərdə salınan dairəvi yolları Bakıda salmağa dəniz maneə olur. Belə mürəkkəb relyef quruluşuna malik olan şəhərdə stabil və qüsursuz çalışan nəqliyyat sistemi qurmaq üçün çıxış yolu kimi HUB-ların yaradılması zəruri idi. Məhz belə konsepsiya sərnişinlərin rahat gediş-gəlişini təmin etməyə, nəqliyyatın mobilliyinə nail olmağa və əsasən də sərnişindaşımada təhlükəsizliyi təmin etməyə, paytaxtın mərkəzi hissəsində nəqliyyat sıxlığını aradan qaldırmağa imkan verir.

Prezident İlham Əliyev "Koroğlu" HUB-un açılış mərasimində bir daha qeyd etdi ki, paytaxtın nəqliyyat sisteminin inkişafı və mükəmməlləşdirilməsi diqqət mərkəzindədir: "Ona görə ən müasir avtobuslar alınır, nəqliyyatla və təhlükəsizliklə bağlı çox ciddi tədbirlər görülür. Bu işləri davam etdirin. Şəhərimizin hər bir yerində ən yüksək səviyyəli nəqliyyat şəraiti yaradılmalıdır".

Paytaxtda və ölkədə qurulan nəqliyyat sistemi dünyanın müasir yol mədəniyyəti ilə harmonik vəhdət təşkil edir. Bu baxımdan atılan bütün addımlar ən adi incəlikləri belə nəzərə alır. Əgər əvvəllər belə məqamlara diqqət yetirilmirdisə, indi paytaxtın yollarında salınan yeni səkilərdə görmə qabiliyyəti zəif vətəndaşlar üçün də şərait yaradılır. Eyni zamanda ekologiyanın və insan sağlamlığının qorunması məqsədilə yol infrastrukturunda yeniliklər tətbiq edilir. Məsələn, Hökumət evinin arxasında pilot layihə kimi velosiped yolunun salınmasına start verilmişdir. 100 metrlik hissəsi artıq hazırdır və indi velosiped yolunun örtüyü ilə bağlı təcrübələr aparılır. Bu yolun salınmasında əsasən yerli materiallardan istifadə edilir. Bakı şəhərində ümumilikdə 18,5 kilometrlik, ilk mərhələdə isə 7,5 kilometrlik velosiped yolunun salınması nəzərdə tutulub. Bu, şəhər nəqliyyatının inkişafında maliyyə tutumuna görə o qədər nəhəng layihə olmasa da, aparılan islahatlar fonunda insanların sağlamlığı üçün diqqət çəkən vacib yenilikdir. Bakıda da dünyanın əksər meqapolislərində olduğu kimi, velosipeddən daha çox istifadə edəcəklər və bu, adi hala çevriləcək.

Paytaxtın ən ciddi problemlərindən biri maşınların saxlanılması üçün yerlərin azlığıdır. Qeyd edək ki, bu istiqamətdə ciddi tədbirlər görülür və parklanma ilə bağlı ilkin mərhələdə 600-dək yer müəyyənləşdirilmişdir.

Yeniliklər baxımından isə "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi xüsusi əhəmiyyət kəsb edir. Burada dörd platformadan ibarət avtobus terminalında müasir informasiya texnologiyaları avadanlığı, havalandırma sistemi ilə təchiz edilmiş 10 gözləmə zalı ilə yanaşı mərkəzdə 5 köşk, 1 idarəetmə otağı, tibb məntəqəsi, ana və uşaq otağı inşa edilmişdir. Ətraf kənd və qəsəbələri şəhər mərkəzi ilə birləşdirən 30 müntəzəm marşrut xətti üzrə 430-a yaxın avtobusun fəaliyyət göstərdiyi mərkəzin xidmətlərindən gün ərzində 270 min nəfərə yaxın sərnişin istifadə edə biləcək. Bakı indi nəhəng meqapolisdir və bu şəhərdə gün ərzində 2,2 milyon sərnişin daşınır.

Bütünlükdə paytaxtın avtobus parkının yenilənməsi məqsədilə dövlət başçısının sərəncamına əsasən 300 yeni avtobus sifariş olunmuş və onların 168-i BNA-ya təhvil verilmişdir.

Prezident İlham Əliyev mərkəzi belə qiymətləndirdi: "Biz bu parkı mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl yaratmışıq. İndi bura gözəl bir istirahət zonasıdır. Bu da parka bitişik olan bir yerdir. Burada gözəl şərait var. Biz böyük bir ərazini ictimai yerə çevirdik. Çünki bəzi fikirlər var idi ki, burada tikinti aparılsın, binalar tikilsin. Mən icazə vermədim, dedim ki, bura vətəndaşların rahatlığı üçün ictimai zona olmalıdır. İndi bura böyük ərazidir. Şəhərin mərkəzində yeni gözəl istirahət və nəqliyyat mərkəzi yaradılıb".

Ölkənin nəqliyyat infrastrukturunda tətbiq edilən yeniliklər, islahatlar epizodik xarakter daşımır və qısamüddətli deyil. Bütün işlər mərhələli və davamlıdır. İslahatar artan xətlə reallaşdırılır. Son nəticədə şəhərdaxili və şəhərlərarası avtobuslar, metro və dəmir yolu nəqliyyatı kimi ictimai nəqliyyat növlərini birləşdirən və onların arasında daşımaları asanlaşdıran mükəmməl nəqliyyat infrastrukturu yaradılır. HUB konsepsiyası özünü tam doğruldur, bu sistem mükəmməl və qüsursuzdur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Hədəf insanların güzəranını daha da yaxşılaşdırmaqdır

### Ardıcıl islahatlar dövlət başçısının verdiyi vədlərin əməli işlə təsdiqləndiyini göstərir

*Əvvəli 1-ci səh.*

Bu il sentyabrın 20-də Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə dövlət başçısı demişdir: "Neft, qaz tükənən sərvətlərdir. İntellektual potensial, bilik, savad, səriştə, təcrübə isə dəyişməz sərvətdir. Bu təlimlərdən keçmiş Azərbaycan vətəndaşları, mütəxəssisləri bu gün çox böyük işlər görürlər, ölkəmizin inkişafına böyük töhfə verirlər. Neftdən əldə edilmiş gəlirlər ölkə iqtisadiyyatının inkişafında istifadə olundu. İnfrastruktur tamamilə yeniləndi. Yadınıza salın, 1994-cü ildə bizim infrastrukturumuz nə vəziyyətdə idi, bu gün nə vəziyyətdədir. Bu gün Azərbaycanda qazlaşdırma 96 faizdir. Biz ən ucqar dağ kəndlərinə qaz xətləri çəkmişik və bu proses davam etdirilir... O illərdə ölkəmizin yarısı işıqsız qalırdı. Bakı şəhərinin özündə işıq çatışmırdı. Hətta bəzi hallarda saat 12-də televiziya kanalları da fəaliyyətini dayandırırdı ki, vətəndaşlar elektrikdən az istifadə etsinlər. Artıq 3 min meqavata yaxın yeni generasiya gücləri yaradılıb və biz nəinki özümüzü təmin edirik, ixrac da edirik".

Azərbaycanı digər ölkələrlə, respublikanın şəhər və rayonlarını bir-biri ilə bağlayan avtomobil yolları öz yerində, son illərdə yüzlərlə kilometr kəndarası yollar da çəkilib. Yol isə həm rahatlıq, həm abadlıq, həm də inkişaf deməkdir. Bu, o deməkdir ki, insanlar vaxt itirmədən mənzilbaşına çatırlar, kəndlinin yetişdirdiyi məhsul bazarlara gedən yollarda ləngimir, bölgələrimizə maraq göstərən turistlərin sayı artır.

İstər böyük şəhərlərdə, istərsə də kəndlərdə əhalinin su sarıdan çəkdiyi çətinliyə də son qoyulub. Əhalinin 75 faizi dayanıqlı içməli si ilə təmin edilir və bu istiqamətdə aparılan işlər də davamlıdır.

Şərhə ehtiyacı olmayan faktdır ki, Azərbaycan dövləti neftdən əldə olunan gəlirləri ilk dəfə qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşmasına yönəltdi. 2007-ci ildə ölkə ərazisindəki son çadır şəhərciyi də ləğv olundu. Məcburi köçkünlər üçün salınan şəhərciklərin sayı 105-ə çatıb. Bu şəhərciklərin bir çoxunun açılışında Prezident İlham Əliyev iştirak edib.

İnsanların xoş güzəranı üçün görülən bu və digər genişmiqyaslı, çoxşaxəli işlər dövlət başçısının "Mən hər bir azərbaycanlının Prezidentiyəm", "Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşların maraqları dayanır" sözlərinin əyani təsdiqidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***





## TAP: "Yunanıstan, Albaniya və İtaliyada xəndəkqazma işlərinin 99 faizi yekunlaşıb"

Azərbaycan təbii qazını Avropaya nəql edəcək Transadriatik (TAP) qaz boru kəmərinin inşası çərçivəsində Yunanıstan, Albaniya və İtaliyada xəndəkqazma işlərinin 99 faizi tamamlanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb.

Qeyd edək ki, TAP-ın quru hissəsinin inşası üzrə İtaliyada boruların tikintisinə başlanılıb. Melendugno şəhərindəki 1,5 kilometrlik mikrotunelin inşası aprelin sonunda turist fəaliyyətləri və sahilboyu ətraf mühitə heç bir təsir və ya müdaxilə olmadan tamamlanıb. Boru kəmərinin İtaliya hissəsinin və qəbul terminalının tikintisinin tamamlanması üzrə işlər davam edir. Hazırda qəbul terminalının inşasının 32 faizi yekunlaşıb. Həmçinin TAP-ın İtaliyadan keçəcək təxminən 8 kilometrlik hissəsində boruların 3 kilometri xəndəyə endirilib.

TAP-ın quru hissəsinin inşası çərçivəsində Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların 99 faizi torpağa basdırılıb. İlin sonuna kimi Yunanıstan və Albaniya marşrutunda boruların 100 faizi torpağa basdırılacaq. Yunanıstan, Albaniya və İtaliyada boru kəməri marşrutunun 97 faizində torpaq örtüyü bərpa edilib, boruların 99 faizi marşrut xətti boyunca düzülüb. Üç ölkədə boruların 99 faizi qaynaqlanıb.

Avqustun TAP qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 89,3 faizi icra edilib. Həmçinin TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

Boru kəmərinin inşası üzrə Albaniya sularında dəniz borularının tikintisi artıq başa çatıb. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək, 36 düymlük xəttin inşasında ümumilikdə 100 min ton ağırlığında təxminən 9 min boru istifadə olunacaq. "Saipem" dənizdəki tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək.

TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən 2 il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. Lazımi turbokompressorlar isə "Siemens" şirkəti tərəfindən istehsal olunub.

Xatırladaq ki, layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur. Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən - Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub qaz dəhlizi"nin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. TAP-la Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

Boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz).

## Dövlət dəstəyinin bəhrəsi

### "Ağ qızıl" tayaları sıralanır





*Əvvəli 1-ci səh.*



- Görürsünüz, torpaq zəhmətimizi itirməyib. Becərmə zamanı aqrotexniki tədbirləri vaxtında yerinə yetirdiniz. Sahəni alaqdan vaxtında təmizlədiniz, gübrəni vaxtında verdiniz, suvarmanı, kultivasiyanı gecikdirmədiniz. Bu da nəticəsi. İnşallah, hər hektardan orta hesabla 40 sentner məhsul götürə biləcəksiniz.

Baş aqronom pambıqyığan maşınlar bizə yaxınlaşanda onların yüksək keyfiyyətindən söz açdı. Dedi ki, ABŞ istehsalı olan bu maşınlar itkiyə yol vermir. Kabinəsində monitoru, soyuducusu var. Şpindelləri avtomatik qaydada yumaq üçün 1000 litrlik su çəninə 14 litr texniki şampun qatılır. Hər birinin qiyməti 500 min manatdan çoxdur. Sağ olsun dövlət başçısı. Onun tapşırığı ilə alıb gətirib bizə də veriblər. Gördüyünüz nəqliyyat traktorları da, lafetlər də 6-7 il bundan qabaq yox idi. Kifayət qədər digər texnikamız da var.

Kombaynların işıqları yanmağa başlayanda "Hər ikisi dolub" dedi. Qoşqu traktorlarının mexanizatorları lafetləri bir-birinin ardınca əvvəlcədən müəyyən olunmuş yerə çəkdilər. Kombaynlar onlara yan aldı. Bunkerlər boşalanda hava küləkli olduğundan pambığın cüzi hissəsi yerə töküldü. Briqadir Loğman Həsənov "Yerə tökülən pambığın bir qramı da yerdə qalmayacaq, kombaynlar kənara çəkilən kimi hamısını yığıb lafetlərə tökəcəyik" dedi.

Sahədən çıxandan sonra yolumuz yenə "P-Aqro" MMC-nin həyətindən düşdü.

Ayrı-ayrı pambıq tarlalarından gələn dolu lafetlər növbə ilə qapan-tərəzidə çəkilir, laborant Şəbnəm Atamalıyeva lafetlərdən nümunə götürərək cihazlar vasitəsilə məhsulun nəmlik və təmizlik dərəcəsini yoxlayır, boşaldılan pambıq transportyorlarla tayalara vurulurdu.

"P-Aqro" MMC Salyan filialı üzrə sentyabrın sonuna 1500 tondan çox məhsul tədarük edilmişdir. Hər gün sahələrdən 150-170 ton "ağ qızıl" yığılır. Mütəxəssislər hələlik hər hektardan 30 sentner məhsul əldə olunduğunu bildirir və sevinclərini gizlətmirdilər. Niyə də gizlədəydilər. Axı fermerlərin, torpaq mülkiyyətçilərinin əldə etdikləri nailiyyətdə onların da əməyi az olmamışdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# REGİONLAR






## Quruculuq işləri davam edir

### Sənaye potensialı yüksək olan Mingəçevir uğurlarını artırır





**Bozdağın qoynunda salınmış, yurdsevər insanların əqli, zəkası, zəhməti ilə tikilib-qurulmuş Mingəçevir bu gün daha gözəl, daha füsunkardır. Bu payız günlərində şəhər zümrüd libası, al-əlvan çiçəkləri, yaraşıqlı park və xiyabanları, abad küçə və prospektləri, nümunəvi yaşayış məhəllələri ilə göz oxşayır, könül rahatlığı yaradır. Mingəçevirin tikilib-qurulması, müasir bir sənaye şəhərinə çevrilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Prezident İlham Əliyevin davamlı qayğısı sayəsində indi Mingəçevir yeni intibah dövrünü yaşayır. Şəhərdə yeni sosial infrastruktur layihələri uğurla reallaşdırılır.**

Abadlıq-quruculuq işləri inamla davam etdirilir. Mütərəqqi texnologiyalar əsasında qurulan yeni istehsal və emal müəssisələri hesabına şəhərin sənaye potensialı aydan-aya daha da güclənir. Yeni ünvan tapmış sənaye parkının fəaliyyəti bu baxımdan xüsusi diqqət çəkir. Burada istehsal olunan pambıq ipliyinin təxminən 80 faizi ixrac edilir. Sənaye parkı şəhər sakinlərinin ürəyincə olan layihədir. Hələlik burada 680 nəfər çalışır. Sənaye parkı tam istehsal gücü ilə işləyəndə, nəzərdə tutulan 8 fabrik fəaliyyətə başlayanda burada çalışanların sayı 5 min nəfərdən çox olacaq.

Şəhərdə tikinti işləri yüksək əhvali-ruhiyyə ilə davam etdirilir. Hər kəs çalışır ki, yaşadığı şəhərin gözəlliyinə öz töhfəsini versin. "Dostluq" parkında əsaslı yenidənqurma işləri yüksək zövqlə aparılır. "20 Yanvar" abidəsi şəhidlərimizin əziz ruhuna ehtiram əlaməti olaraq yenidən qurulmuşdur. N.Nərimanov və Naxçıvan küçələrində binaların fasadları təmir olunmuş, giriş qapıları quraşdırılmışdır. Azərbaycan İstilik Elektrik Stansiyası massivindəki Cəmil Əliyev və Naxçıvan küçələrindəki, Sahil yaşayış massivindəki Vaqif Abdullayev küçəsindəki çoxmərtəbəli binaların dam örtükləri təmir olunmuşdur. Sol sahil massivində şəhərin ən böyük yaşayış sahəsi olan 127-ci məhəllədə bərpa işləri aparılmışdır.

Şəhər rəhbərliyinin təşəbbüsü ilə başlanan "Nümunəvi məhəllə" layihəsi uğurla davam etdirilir. Artıq müxtəlif yaşayış massivlərində 17 nümunəvi məhəllə yaradılmışdır. Məhəllələrin sakinləri göstərilən qayğıdan, yaradılan şəraitdən çox məmnundurlar. N.Nərimanov küçəsindəki 36 saylı binanın sakini Şahid Nəbiyev bu barədə dedi:

- İndi bizim məhəllə də nümunəvi məhəllələr sırasındadır. Burada xeyli iş görülüb. Həyətə asfalt döşənib, səkilər düzəldilib, binanın girişlərinə qapılar quraşdırılıb, ətrafda yaşıllıq salınıb, uşaq əyləncə mərkəzi yaradılıb. Bütün bunlar hər birimizdə hədsiz razılıq doğurur. Qayğı və diqqətə görə məhəllə sakinləri adından respublika Prezidenti İlham Əliyevə teleqram vurub minnətdarlığımı bildirdim. Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılova təkcə səyyar qəbullarda deyil, digər yerlərdə görüşlərdə də sözümüzü deyib, istədiyimiz köməyi alırıq. Ona tez-tez ictimai yerlərdə rast gəlirik.

Şəhərin enerji istehsalı müəssisələrində də modernləşmə və əsaslı yenidənqurma işləri davam etdirilir. Azərbaycan İstilik Elektrik Stansiyasında cari ilin birinci yarısında 3.9 milyard kilovat-saat elektrik enerjisi istehsal edilmişdir. Stansiyada idarəetmə mərkəzi ilə birlikdə yeni inzibati bina inşa olunmuşdur. Yeni kompressor stansiyası, 330 kilovotluq qapalı yarımstansiya, azot və oksigen sexləri tikilir. "SES silsiləsi" MMC-də 2 ədəd hidroaqreqat və onlara aid köməkçi avadanlıqlar, 2 ədəd güc transformatoru cari təmir olunmuşdur.

Şəhərin sənaye potensialı ildən-ilə güclənir. "Azneftmas" və "Mingəçevir maşınqayırma zavodu" ASC-lər, "Mingəçevir Tekstil", "Htech invest" və "ASK izolit" MMC-lər ahəngdar fəaliyyətləri ilə şəhər iqtisadiyyatına sanballı töhfələr verirlər.

Ermənistanın işğalçılıq siyasəti nəticəsində doğma dədə-baba torpaqlarından didərgin salınmış 20243 nəfər məcburi köçkün Mingəçevirdə məskunlaşmışdır. Şəhər rəhbərliyi onlara doğma və isti münasibət göstərir, sosial-məişət problemlərinin həllində köməyini əsirgəmir.

***Lazım QULİYEV, "Azərbaycan"***









## Şabran regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsi ildə 300 ton yun qəbul edəcək

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Şabran regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsində fermerlərdən yun tədarükü davam edir.



AZƏRTAC xəbər verir ki, bu ilin may ayından fəaliyyətə başlayan tədarük məntəqəsi üçün yun Abşeron, Xızı, Siyəzən, Şabran, Quba, Qusar və Xaçmaz rayonlarındakı fermer təsərrüfatlarından alınır. Yun fermerlərdən əlavə dəyər vergisi daxil olmaqla, 2 manata qəbul edilir.

Yunun alınması tədarükçülər tərəfindən yerlərdə, həmçinin birbaşa məntəqənin özündə həyata keçirilir.

Regional məntəqəyə gətirilən məhsul rənginə və ölçüsünə görə çeşidlənir. Yun çeşidləndikdən sonra kipləşdirilərək, üzərinə xüsusi yarlıqlar vurulur. Həmin yarlıqda yunun rəngi, qəbul tarixi, hansı rayondan alındığı, çəkisi, növü, qaba və incəliyi, nəmliyi barədə məlumatlar əksini tapır. Məntəqədə kipləşdirilmiş yun Sumqayıtdakı Yunəyirici-Boyaq Fabrikinə təhvil veriləcək.

Məntəqənin əməkdaşı Xanbala Əbilov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, tədarük zamanı xalça toxunması üçün iplik istehsalına yararlı olan yunun qəbuluna üstünlük verilir. Belə ki, iplik istehsalı üçün yalnız ildə bir dəfə qırxılan, uzunluğu 8 santimetr olan yunun qəbulu həyata keçirilir. İplik istehsalına yararlı olmayan yun isə yuyularaq xammal kimi satışa çıxarılacaq.

Şabran regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsində ildə 300 ton yun qəbulu nəzərdə tutulub.

## Kür çayına körpə balıqlar buraxılıb

Tovuz rayonunda xüsusi müəssisələrdə yetişdirilmiş balıq körpələri Kür çayına buraxılıb. AZƏRTAC xəbər verir ki, Kür çayının sahilində keçirilən tədbirdə bir neçə saat ərzində çəkisi 100 qramadək olan minlərlə balıq körpəsi xüsusi avadanlıqlar vasitəsilə çaya ötürülüb.



Bu ilin sonunadək, ümumilikdə, 400 minədək balıq körpəsinin Kür çayına buraxılması planlaşdırılır. Məqsəd ölkənin təbii su hövzələrində balıq populyasiyasını tənzimləmək, balıq məhsullarının əhalinin tələbatına uyğunlaşdırılmasına dəstək vermək və balıq ehtiyatlarının qorunmasının zəruriliyini təşviq etməkdir.

## Gənclərin sevimli ünvanı

**Qusarda həyata keçirilən abadlıq-quruculuq işlərinin miqyası genişlənməkdədir. Asfalt küçələr, yaşıllıq zolaqları, yeni istirahət parklarının yaradılması, binaların fasadının yenilənməsi və digər işlər rayonun simasını xeyli dəyişdirib. Ölkəmizin şimal qapısı sayılan Qusarda yerli memarlıq üslubu baxımından fərqlənən rayon icra hakimiyyətinin inzibati binası, Heydər Əliyev Mərkəzi və sosial obyektlər yaraşığı ilə diqqət çəkir.**





Rayonda Heydər Əliyev Mərkəzi Prezident İlham Əliyevin xeyir-duası ilə 2012-ci ildə fəaliyyətə başlayıb. 2 hektar sahədə Heydər Əliyev Mərkəzi, uşaq əyləncə meydanı, ictimai iaşə obyekti inşa olunub. Heydər Əliyev Xatirə Kompleksi ərazisində geniş abadlıq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Burada insanların ilin bütün fəsillərində istirahəti üçün hər bir şərait yaradılıb.

Heydər Əliyev Mərkəzi ikimərtəbəli, ümumi sahəsi 1420 kvadratmetrdir. Mərkəzdə 118 sayda foto və sənədlərdən ibarət eksponatlar Ümummilli Liderin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əhatə edir.

Birinci mərtəbədə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illəri, ölkəmizin müxtəlif bölgələrinə, o cümlədən Qusara səfərlərini, rayon ictimaiyyəti ilə görüşlərini əks etdirən fotoguşələr yer alıb.

Mərkəzə gələnlər fotolara xüsusi maraq göstərirlər. Foto və sənədlərdən ibarət eksponatlar xatirələri canlandırır. Vaxtilə Heydər Əliyevlə görüşmüş insanlar şəkillər qarşısında saatlarla dayanır, xəyalən həmin günlərə qayıdırlar. 8 foto-eksponat stendi Ulu Öndərin zəngin irsinin müxtəlif məqamlarını özündə əks etdirir.

Mərkəzdə 8 lövhə var. Həmin tablolarda Ümummilli Liderin siyasi fəaliyyəti, sadə insanlarla görüşləri, çıxışları, Qusara etdiyi səfərləri yer alıb. Monitorda Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş filmlər nümayiş olunur.





Mərkəzdə həmçinin 105 yerlik kinozal fəaliyyət göstərir. Rayon gərclərinin sevimli yeri olan bu zalda yerli həvəskarların çəkdikləri qısametrajlı filmlər nümayiş etdirilir, dövlət tədbirləri keçirilir, icra strukturlarının səyyar görüşləri təşkil olunur. Turistlərlə görüşlər, rayona gələn qonaqlarla bağlı çəkilişlər də burada geniş yer alıb.

Mərkəzdə fəaliyyət göstərən kitabxananın çox hissəsi elektronlaşdırılıb. Kompüterdən istifadə etməklə istənilən elektron kitabı oxumaq mümkündür. Burada internet-klub və kafe də fəaliyyət göstərir. İstirahət zamanı gənclər ora yığışır, fikir mübadiləsi çay və kofe süfrəsində davam etdirilir.

Azərbaycana işgüzar səfərə gələn xarici qonaqlar mərkəzdə olur, buradan xoş təəssüratla ayrılırlar. Latviya, Litva, Polşa, Rusiya, Belarus, Türkiyə və digər ölkələrdən gəlmiş nümayəndə heyətləri mərkəzi ziyarət etmişlər. Qonaqlar mərkəzin "Xatirə kitabı"na öz ürək sözlərini yazmışlar. Kitabı vərəqlədikcə insanların Heydər Əliyev irsinə marağının bir daha şahidi olursan. Mərkəzin kollektivi müxtəlif dillərdə filmlərin kataloqunu hazırlayıb. Ulu Öndərin həyat və fəaliyyətini özündə əks etdirən kitablar sərgilənmək üçün xüsusi lövhələrdə yerləşdirilib. Heydər Əliyev ömrünün müxtəlif anlarını canlandıran filmlərin xarici dillərə tərcümə variantlarının çoxu qusarlı xarici dil müəllimləri tərəfindən icra edilib.

Mərkəzdə xalçaçılıq və rəssamlıq dərnəkləri fəaliyyət göstərir. Xalçaçılıq dərnəyində məktəbli qızlar şənbə və bazar günləri xovsuz milli xalça növü olan sumaxın toxunuşunun sirlərinə yiyələnirlər. Dərnəyin rəhbəri Natəvan Verdixanova bildirir ki, qızlar toxuculuğu həvəslə öyrənirlər. Hazırda dərnəkdə 8-12 şagird təlim keçir. Qızlarımızın əl işləri rayonda və regionda keçirilən tədbirlərdə sərgilənir və uğur qazanır.

Rəssamlıq dərnəyinin rəhbəri Kəmalə Daşdanovadır. Şagirdlər burada rəsm dərsləri alır, dərnəkdə dekorativ sənət nümunələrinin sirlərinə yiyələnirlər. Dərnək rəssamlarının əl işləri "Bölgələrdən-bölgələrə" festivalında xüsusi mükafata layiq görülüb. "Ölkəmizi tanıyaq" devizi altında müxtəlif bölgələrə səfər edən gənclər dərnəyin rəsmlərini özləri ilə apararaq nümayiş etdirmişlər.

Mərkəzdə qızlardan ibarət "Ləzginka" rəqs qrupu da fəaliyyət göstərir. Həftənin şənbə və bazar günləri məşğələlər keçirilir. Məşğələləri rəqs müəllimi Aysel Rüstəmova aparır. Qrupun 12 üzvü var.

Mərkəzin missiyasının biri də müxtəlif yerlərə turların təşkilidir. Belə ki, 31 Mart, 20 Yanvar, 9 Noyabr və digər tarixi günlərdə gənclərin Quba, Şamaxı, Bakı və başqa şəhərlərə səfərləri təşkil olunur.

Mərkəzin digər ziyarətçiləri yeni ailə quranlardır. Gənclər arasında belə bir ənənə yaşamaqdadır. Gənclər ailə həyatının başlanğıcı olan nikah mərasimini bu mərkəzdə keçirirlər.

Milyonlar üçün yaşanmış ömür talelərin çırağına çevrilir. Bu gün qusarlıların qəlbində əbədi yaşayan Heydər Əliyev dühası hələ neçə nəsillərin həyat yoluna işıq salacaq.

***Akif ƏLİYEV, "Azərbaycan"***









# Mədəniyyət





● Xalq yaradıcılığı: milli rəqslərimiz



# Şərur yallıları

## Bu milli oyunun Naxçıvanda 100-dən çox növü olub

**Elə ki hava qaraldı, gecənin bağrını dələn bir səs yüksəlir göyə - "Yallı"nın səsi. Onda nə hikmət, nə ululuq varsa adamı tez ofsunlayır, sehrinə salır. Nağaranın səsi dağlarda, daşlarda əks-səda verir. Hay-harayın kəndləri bürüdüyünün şahidi olursan, qollar çarpazlaşır, ayaqlar şimşəkdən sanki güc alır, musiqinin adamı yerindən oynadan xoş sədaları ətrafa yayılır. Oğuz elinin oğulları mağar boyu halay qurur, yallı tuturlar.**

Yaşlı nənələr, sinəsi sazlı-sözlü babalar - müdriklik mücəssəməsi olanlar danışırlar ki, qədimlərdə də belə olub: Şərur elinin toyları təmtəraqlı keçib. Bütün məclislərdə elimizin gözəl rəqsi olan "Yallı"nı hamı şövq ilə oynayıb. Toy yallı ilə başlayıb, elə onunla da sona çatıb. Şərurda az adam tapılar ki, bütövlük, birlik simvolu olan, vətənpərvərlik, mübarizlik təlqin edən bu qədim rəqsi oynamağı bacarmasın. Elə "Yallı" Şərur elinin "milli emblem"idir" aforizmi də bu mənada yaranıb. Həm də ona görə ki, Şərur deyiləndə folklorumuzun bu qədim növü yada düşür.

Müasir dövrdə, mədəniyyətlərin qovuşağında, inteqrasiyasında yallılarımız da milli-mənəvi dəyərlərimiz kimi, sərhədlər aşıb heyrət yaradır. Şərurda fəaliyyət göstərən folklor ansamblları incəsənətimizin bu nadir növünü qoruyub saxlayaraq yaşadır, nəsildən-nəslə uğurla əmanətləyirlər.

Yallılar milli pasportumuz olan tarixi abidələrimiz qədər dəyərlidir. Səs-sorağı sərhədləri aşır Şərur yallısının. 1924-cü ildən fəaliyyətə başlayan "Yallı" folklor ansamblı böyük səhnəyə 1936-cı ildən çıxıb. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə doğurduğu rezonans isə o zaman dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin bu münasibətlə kollektivə göndərdiyi təbrik teleqramında da öz əksini tapıb.

Bu qədim el sənətini yaşadan kollektiv Azərbaycan tarixinin dirçəliş mərhələsinin başlanğıcından fenomenal şəxsiyyət olan Heydər Əliyevin diqqət və qayğısı sayəsində hələ sovetlər dönəmində ümumittifaq miqyaslı tədbirlərin fəal iştirakçısına çevrilib.

Yallılarımız Azərbaycanın milli mədəniyyətinin, folklorunun gözəl incisidir. Yallılar Azərbaycanın bir çox bölgələrində yayılıb və inkişaf edib. Amma yallının çox növü Şərurda daha geniş yayılıb: "Şərur yallısının çox böyük tarixi var. Bir əsrə bərabər yaşı olan bu rəqs növü günümüzədək qorunub saxlanılıb. Məqsədimiz yallılarımızı gələcək nəsillərə təqdim etməkdən ibarətdir. "Şərur" yallı ansamblı əvvəllər kiçik qrup şəklində olub. Sonradan dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin SSRİ Ali Sovetinə bu rayondan deputatlığa namizədliyi irəli sürülüb. Onun seçiciləri ilə görüşə gəlməsi zamanı konsert proqramı təşkil olunub. Orada yallı da oynanılıb. Bu qədim rəqs növü bəstəkarın xoşuna gəlib. Deyib ki: "Azərbaycanda da yallılar var. Amma yallı Şərurda doğulub. Yallının məkanı Şərurdur".

Belə gözəl fikirlər müəyyən zamanlarda Ulu Öndər Heydər Əliyev tərəfindən də deyilib. Bakıda keçirilən tədbirlərdə iştirak edəndə, Ulu Öndərin bizim kollektivə yaxınlaşıb söylədikləri xatirimdədir: "Şərur" yallısı bizim dünənimiz, bugünümüz və gələcəyimizdir. Şərur yallılarını qoruyub saxlamalıyıq".

"Şərur" yallı ansamblı nəinki Azərbaycanda, ondan kənarda, dünyanın bir çox ölkələrində keçirilən folklor festivallarına qatılıb. Keçmiş SSRİ dönəmində Almaniyada, Macarıstanda, Polşada olan ansambl 2000-ci ildə Misir Ərəb Respublikasında keçirilən folklor festivallarında iştirak edib. Kollektiv orada yüksək çıxışına görə "Qızıl açar" mükafatına layiq görülüb. Mədəni əlaqələr genişləndikdən sonra demək olar ki, kollektiv bir qayda olaraq, hər il Türkiyəyə dəvət olunur, folklor festivallarında iştirak edir.

Ansamblın üzvlərinin əksəriyyəti Azərbaycanın və Naxçıvanın fəxri adlarına layiq görülüb. Onların arasında Prezident mükafatçıları da var.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur yallıları haqqında fikirlərini belə ifadə edib: "Naxçıvanın üç incisi bizim üçün xüsusilə əzizdir: Əshabi-Kəhf, Gəmiqaya və Şərur yallıları".

Mənbələrdə göstərilir ki, "Yallı" rəqs növünün tarixi çox qədimdir: yazılı mədəniyyətdən əvvəlki dövrlərə təsadüf edir. Oğuz ellərinin həyat tərzi, məişəti, dünyagörüşü "Kitabi-Dədə Qorqud" dastanının boylarında sözlə, fikirlə, yallılarda isə rəqslə, ritmlə, hərəkətlərlə ifadə olunur. Mütəxəssislərin fikrincə, bir vaxtlar Şərur bölgəsində yallının 100-dən çox növü olub: "Çolağı", "Üç addım", "Köçəri", "Dönə Yallı", "Qaz-qazı", "El Yallısı", "İki ayaq", "Qaladan-qalaya", "Şəranı" və s.

Onların bir qismi toy mərasimlərində, el şənliklərində yaşadılaraq bugünə gəlib çıxıb. Şərur yallısının qorunması, yaşadılması və təbliğində "Şərur" yallı ansamblının mühüm rolu olub.

1972-ci ildə Almaniya Demokratik Respublikasında folklor festivalı keçiriləndə "Şərur" yallı ansamblını həmin tədbirə Xalq artisti Əminə Dilbazi hazırlaşdırır. Məşhur rəqqasə xatirələrində yazırdı: "Mən bilirdim ki, bizim yallı mədəniyyətimiz Naxçıvanda - Şərur torpağındadır. Biz ora - Almaniyaya elə bir folklor nümunəsi aparmalıyıq ki, üstündə xalqımızın möhürü olsun. Bu, Şərur yallısı idi".

Həmin il ansambl SSRİ Ali Sovetinin fəxri fərmanı ilə təltif olunur. Kollektivə xalq yallı ansamblı statusu verilir. 1984-cü ildə Polşanın Zelyonnaya Qora şəhərində təşkil olunan beynəlxalq festivala qatılan ansamblın fəaliyyətini əks etdirən "Şərur yallısı" sənədli filmi çəkilir. Kollektivin bu uğurlarında Əminə Dilbazi, Əlibaba Abdullayev, Xumar Zülfüqarova, Qəmər Almaszadə, Kamil Dadaşov, Roza Cəlilova kimi Azərbaycanın tanınmış musiqi və rəqs ustalarının böyük xidmətləri olub. Müstəqillik dövründə ansambl daha böyük uğurlara imza atır. Kollektiv 1997-ci ildə Türkiyənin İsgəndərun, 1998-ci ildə Bayburt şəhərlərində keçirilən Dədə-Qorqud festivallarında uğurla çıxış edir. 2001-ci ildə Misirin paytaxtı Qahirədə XII Beynəlxalq Folklor Festivalında da yüksək sənət nümayiş etdirir. Bu gün Şərur rayonunda "Şərur qönçələri" "Uşaq yallısı", "Gənclər yallısı" və "Nurani yallısı" fəaliyyət göstərir.

"Naxçıvan-Şərur el yallıları" kitabı da xalq musiqi və xoreoqrafiya incilərinin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi Əkrəm Məmmədli deyir ki, yallıların əksəriyyəti xalqın süzgəcindən süzülərək indiki dövrümüzə qədər gəlib çıxmışdır: "...Yallıların toplanıb nota salınması işini oğlum Kənan Məmmədli ilə özümüzə vəzifə borcu saydıq və bu yallıları toplayıb nota saldıq. 92 yallı növü topladıq. Azərbaycanın əməkdar mədəniyyət işçisi İsgəndər Əliyevlə, MR-in əməkdar artisti, tarzən Zöhrab Axundovun köməyi ilə yallıların toplanmasını həyata keçirdik. Yallıların əksəriyyət növü Şərur bölgəsində inkişaf edib. Gözəl musiqi və xoreoqrafiya abidəmiz olan yallıları toplayıb kitab halında gələcək nəslə ərmağan etdik. Belə qənaətə gəldik ki, harada yallı varsa, ora oğuz türklərinin torpağıdır".

Unutmayaq ki, yallı xalqımızın birlik rəmzidir. Onu qoruyub saxlamaq isə hər kəsin müqəddəs borcudur.

***Adilə SƏFƏROVA,***
***əməkdar mədəniyyət işçisi***

● Dünyanın yeddi möcüzəsi

# Halikarnas mavzoleyi

**Qədim dünyanın yeddi möcüzəsindən biri də Halikarnas mavzoleyidir. Bu əzəmətli məqbərə Asiyada Kariya padşahlığının paytaxtı Halikarnasda (Türkiyənin indiki Bodrum şəhəri) eramızdan əvvəl IV əsrin ortalarında tikilib.**



### İlk mavzoley

Kariya hökmdarı Mavsol təxminən eramızdann əvvəl 355-ci ildə hələ həyatda idi. O, Halikarnasda öz məzarının tikintisinə başlanması əmrini verdi. 46 metr yüksəklikdə, 36 sütunlu və bir araba heykəli ilə taxtadan möhtəşəm məzar quruluşu düzəltdirdi. Eramızdan əvvəl 353-cü ildə Mavsol dünyasını dəyişdikdən sonra tikinti işləri onun dul arvadı Artemisiyanın və bacısının göstərişləri əsasında aparıldı. Eramızdan əvvəl 351-ci ildə Artemisiyanın ölümündən sonra isə Mavsolun qardaşları məqbərənin inşasını davam etdirdilər.

Antik mənbələrdə yazıldığına görə, tavan ölçüləri 32x38 metr olan mavzoley 4 hissədən ibarət idi. Məqbərənin birinci yarusu ağ mərmərdən relyef zolağı əhatə edirdi, ikinci yarus yaraşıqlı mərmər sütunlardan, üçüncü yarus isə 24 pilləli ehramşəkilli mərmər damdan ibarət idi. Abidənin hündürlüyü barədə latın yazıçısı Plinius məlumat verirdi. Latınların dünyanın yeddi möcüzəsi olaraq gördükləri mavzoley 180 ionluq, yəni iyirmi mərtəbəli yaşayış binasının hündürlüyünə bərabərdi. Həmin ölçü sərgi salonundakı modelə əsaslanırdı.

Qədim müəlliflər binanın memarının Pytos olduğunu qeyd edirdilər. Həmçinin Satyrosun adı da çəkilirdi. Vitruvius bu binada eramızdan əvvəl IV əsrin ən əhəmiyyətli dörd heykəltəraşının - şərqdə Skopasın, qərbdə Leokharesin, şimalda Bryaksisin və cənubda Timoteyin çalışdığını bildirirdi. Bryaksis yerli - Kariya sənətkarı idi, digərləri Yunanıstandan gətirilmişdi. İçərisində İkinci Mavsol və Artemisiyanın heykəlləri olan mərmər dördatlı araba məqbərəni tamamlayırdı. Bu at arabalarını memar Pytosun qurduğu barədə məlumatlar qalmaqdadır.

Möhtəşəm tikili görənləri heyrətləndirirdi. Elə "mavzoley" sözü də buradan yarandı. Onu Mavsolun adı ilə bağlayırlar. "Mavzoley" sözünün "yerüstü məzarlıq" mənasını verdiyini bildirənlər də olmuşdur.

### Dağıntılara məruz qalan məqbərə

Canişinlik uğrunda mübarizələr inşaat işlərinin aparılmasına maneələr yaradırdı. Mənbələrdə mavzoleyin tikintisi yarıya çatdırılanda Halikarnasa ayrılmış maddi vəsaitin bitdiyi və inşaatın davamı üçün pulun insanlardan toplandığı göstərilir. Ehtimal edilir ki, eramızdan əvvəl 340-cı ildə Piksodaros və Ada arasındakı mübarizə zamanı tikinti dayandırılıb.

Tarixi mənbələrə əsaslanaraq demək olar ki, bu abidə uzun əsrlər yerində möhkəm dayandı. Güman edilir ki, mavzoley zəlzələ nəticəsində çökdü.

1402-ci ildə Seint Cen cəngavərləri Bodruma gəldikləri zaman abidənin xarabalarını gördülər. Cəngavərlər bütün daşları sökdülər və Bodrum qalasını tikdilər. Beləcə, məqbərəni ilk məhv edən cəngavərlər oldu. Onlar çuxurun ən dərin hissəsində yerləşən əsas dəfn otağını tapa bilmədikləri üçün ora qaldı. Amma 1522-ci ildə Seint Cen cəngavərləri qalalarını möhkəmləndirmək istədilər. Qalanın tikintisində istifadə etmək üçün ətrafda daşlar axtardılar. Mavzoley bu tarixlərdə son dağıntıya məruz qaldı. Qalanın gücləndirilməsində iştirak edən cəngavərlərdən biri - La Touret xatirəsində məzar abidənin sökülməsindən yazdı. O, qismən kirəmit dam altında qalan 12 pilləli nərdivanı necə tapdıqlarını, sərdabəyə gedən dəhlizin hər iki tərəfindəki heykəl və relyeflərə əvvəlcə baxıb heyran olduqlarını, sonra parçaladıqlarını təsvir etmişdi. Cəngavər sərdabəyə daxil olmaq istədikləri vaxt fasilə zənginin çalındığını, əsas otağa girmədən qalaya geri döndüklərini yazırdı. O, qeyd etmişdi ki, ertəsi gün geri döndükdə həmin otağın açıldığını, hər yerdə dağıdılmış qiymətli parçalar və zinət əşyaları görmüşdülər.

İngilis tədqiqatçısı Çarlz Tomas Nyuton 1856-1857-ci illərdə burada arxeoloji araşdırmaları zamanı daş bloku öz əvvəlki yerinə apardı. Qazıntı vaxtı tapdığı relyefləri, Mavsol və Artemisiyanın heykəllərini, dördatlı arabanın parçalarını Britaniya muzeyinə apardı. Daha əvvəl - 1846-cı ildə Türkiyədə olan İngiltərə səfiri Lord Stratford Canning Sultan Abdülməciddən aldığı icazə ilə Bodrum qalasının divarında olan Mavsolun relyefini Londona aparmışdı.

Danimarkalılar tərəfindən aparılan qazıntılar zamanı isə nərdivanın ətəyində Nyuton tərəfindən qazılmayan ərazidə öküz, qoyun, keçi, xoruz və göyərçin sümükləri tapıldı. Bunlar mərasim zamanı kəsilən heyvanların sümükləri idi.

### Möhtəşəm abidədən bugünümüzə qalanlar...

Beləcə, təbiətin şıltaqlıqları, hakimiyyət çəkişmələri, qovğalar, tarixi abidələrə etinasızlıq qədim dünyanın daha bir möcüzəsinin sonunu gətirdi. Doğrudur, nə aradan ötüb keçən uzun zaman, nə də zəlzələyə məruz qaldıqdan sonra amansızcasına sökülməsi, dağıdılması, parçalanması Halikarnas mavzoleyinin izlərini silə bildi.

O möhtəşəm abidədən qalan İkinci Mavsolun və Artemisiyanın heykəlləri, eləcə də məqbərənin digər bəzək əşyaları Londondakı Britaniya muzeyində saxlanılır. Abidənin olduğu yer isə bu gün çuxur olaraq qalmaqdadır. Həmin ərazinin yaxınlığında yarıqapalı muzey yerləşir. İçəri girərkən sağda Bodrum tipli bir ev, solda mavzoleylə bağlı memarlıq elementləri, maketlər, heykəllər sərgilənir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Mədəniyyət xəbərləri

## Nəsiminin 650 illik yubileyi Berlində qeyd edilib

**Almaniyanın paytaxtı Berlində Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş bəstəkarlarımızın əsərlərindən ibarət konsert təşkil edilib.**



Konsertdən əvvəl çıxış edən Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov iştirakçılara İmadəddin Nəsiminin (1369-1417) ömür yolu və bənzərsiz yaradıcılığı haqqında məlumat verib.

Azərbaycanın dünya musiqisinə böyük töhfə verdiyini qeyd edən səfir R.Həsənov müsəlman dünyasında ilk operanın, o cümlədən ilk balet musiqisinin ölkəmizdə ərsəyə gəldiyini nəzərə çatdırıb.

Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadənin də yaradıcılığından söz açan Ramin Həsənov onun 2008-ci ildə UNESKO-nun "Sülh artisti" adına layiq görüldüyünü, Azərbaycan mədəniyyətinin xaricdə tərənnüm edilməsinə, eləcə də dünya musiqisinə böyük töhfə verdiyini nəzərə çatdırıb. O, bəstəkarın Nəsimi irsi əsasında ərsəyə gətirdiyi "Dərviş", "Zikr", "Nəsimi passionu" kimi əsərlərinin olduğunu bildirib.

## Səhnənin yeni Məhsətisi

**Sentyabrın 27-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində Pikə Axundovanın "Məhsəti" operasının premyerası olub.**



Bülbül adına Orta İxtisas Musiqi Məktəbini üç ixtisas - fortepiano, bəstəkarlıq və nəzəriyyə sinifləri üzrə bitirən Pikə Axundova Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) fortepiano və bəstəkarlıq üzrə ali təhsil alıb. BMA-nın Bəstəkarlıq kafedrasının müəllimi, iki simfoniya, fortepiano ilə orkestr üçün konsert kimi daha bir neçə irihəcmli musiqi əsərlərinin müəllifi Pikə Axundovanın dahi Məhəmməd Füzulinin "Su" qəsidəsinə bəstələdiyi oratoriya bu ilin mart ayında İstanbulun Camal Rəşid Rey salonunda Türkiyə Prezident Orkestrinin baş dirijoru Rəngim Gökmənin idarəsilə ifa olunub.

"Mədəniyyət" televiziya kanalının təşkilati dəstəyi ilə hazırlanan əsər "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Niyazi adına simfonik orkestrinin müşayiəti ilə səslənib. Librettonu Leyla Qədirzadə yazıb, "Məhsəti" onun operada ilk işi olsa da, indiyədək müzikl üçün librettolar da qələmə alıb. Leyla xanım qəhrəmanların ariyalarında da Məhsətinin rübailərindən istifadə edib. Tamaşaya "Məhsəti"miz - İnarə Babayeva quruluş verib. Baletmeyster Xalq artisti Təranə Muradova, geyim üzrə rəssam Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfovadır.

Əsas partiyaları Opera və Balet Teatrının solistləri ifa ediblər. Titul partiyasını Əməkdar artist İnarə Babayeva, Əmir Əhmədin partiyasını Ramil Qasımov, Sultan Səncəri Taleh Yəhyayev, Xanəndə qızı Fərqanə Qasımova oxuyublar. Tamaşada gənclərə üstünlük verilib: Fəhmin Şahyar, Fəxri Kazım-Nicat, İlqar Məclumov da tamaşada çıxış ediblər.

## Bakı Uşaq Teatrı "Arzular"la Nevşehirdə

**"Nəsimi ili" çərçivəsində Türkiyənin Nevşehir şəhərində Azərbaycanın Təhsil Cəmiyyətinin təşəbbüsü, Hacı Bektaş Vəli Universiteti və Azərbaycan Universitetinin birgə təşkilatçılığı ilə İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilən elmi simpozium keçirilib.**



Tədbirə Bakı Uşaq Teatrı da qatılıb. Teatr açılış mərasiminin bədii hissəsində Cənubi Azərbaycanı təmsil edən musiqi qrupu ilə səhnəni paylaşıb. Arzu Soltan və Cəlal Babanın "Arzular", Nərminə Məhərrəmova və Qurban Əhmədovun kompozisiyaları simpozium iştirakçıları və tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

## "Təbriz teatrı və Böyükxan Naxçıvanski"

**AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Musiqi və teatr şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanovun "Təbriz teatrı və Böyükxan Naxçıvanski" adlı monoqrafiyası işıq üzü görüb.**




Monoqrafiyada Təbriz teatrı haqqında aşkara çıxarılan yeni tarixi faktlar tədqiqata cəlb edilib. Bu mədəniyyət ocağının görkəmli aktyor və rejissorları barədə məlumat verilib, Təbrizdə teatr dəstələrinin yaranması və fəaliyyətindən bəhs olunub.

Yeni nəşrdə tanınmış mədəniyyət xadimi, teatr fədaisi Böyükxan Naxçıvanskinin keşməkeşli ömür və sənət yoluna nəzər salınıb, onun Təbriz teatrının inkişafındakı səmərəli fəaliyyəti işıqlandırılıb. Sənətkarın quruluş verdiyi tamaşaların və oynadığı obrazların əsas məqsəd və qayəsinin maarifçilik ideyalarının xalq arasında təbliği olduğu göstərilib.

Naxçıvanın teatr xadimlərinin ötən əsrin əvvəllərindəki fəaliyyətini tədqiq edən müəllif monoqrafiyada həmin dövrün teatr proseslərinə dair əhəmiyyətli arxiv materiallarını oxucuların ixtiyarına verir. Nəşrdə tədqiqatçı tərəfindən aşkar olunmuş nadir fotoşəkillər də əksini tapıb.

***Hazırladı:***
***M.NƏRİMANOĞLU***

# DSX rəisi Ermənistanla dövlət sərhədində xidməti-döyüş fəaliyyətini yoxlayıb




Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev oktyabrın 2-3-də Xidmətin Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının Ermənistanla dövlət sərhədində yerləşən sərhəd döyüş məntəqələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, son günlər xidməti ərazidəki əməliyyat şəraiti, Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən mütəmadi olaraq atəşkəs rejiminin pozulması, təxribat-diversiya cəhdləri və bununla əlaqədar görülən tədbirlər barədə vəzifəli şəxslərin məruzələri dinlənilib. Dövlət sərhədinin müdafiəsi və mühafizəsi üzrə xidməti fəaliyyətin təkmilləşdirilməsi, düşmənin təxribatlarının qarşısının qətiyyətlə alınması, şəxsi heyətin təhlükəsizliyinin daha da gücləndirilməsi barədə tapşırıqlar verilib.

***"Azərbaycan"***

# *Leyla ABDULLAYEVA:* "Ermənistanın gərginliyin artırılmasına yönəlmiş siyasəti bölgədə sülh və təhlükəsizliyə başlıca maneədir"

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva oktyabrın 2-də Azərbaycanın Qazax rayonunda Ermənistan silahlı qüvvələrinin məqsədyönlü şəkildə açdığı atəş nəticəsində azərbaycanlı mülki şəxsin öldürülməsi ilə bağlı KİV-ə açıqlama verib.



AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva Ermənistan silahlı qüvvələrinin növbəti təxribata əl atdıqlarını, Azərbaycan-Ermənistan sərhədi yaxınlığında Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətində təminat yollarının salınması ilə məşğul olan ekskavatorumuzu atəşə tutduqlarını bildirib. İnsident nəticəsində ekskavatorun sürücüsü, mülki şəxs Səfərəli Abışov həlak olub.

"Ümumiyyətlə, xatırlatmaq istərdik ki, münaqişə ərzində azərbaycanlı mülki şəxslərin məqsədyönlü şəkildə qətlə yetirilməsi Ermənistan silahlı qüvvələrinin fəaliyyətinin əsas mahiyyətini təşkil edib. 1992-ci ildə Xocalıda baş vermiş qanlı qətliam, eləcə də Azərbaycan və Ermənistan dövlət sərhədi və cəbhə xəttinə yaxın ərazilərdə yaşayan azyaşlı uşaqların öldürülməsi halları bunun bariz sübutudur. Son zamanlar tendensiya halını almış və Ermənistan rəhbərliyinin məsuliyyətsiz bəyanatları ilə müşayiət olunan atəşkəsin pozulması halları onu təsdiq edir ki, təəssüf ki, işğalçı ölkənin bəyanat və əməlləri münaqişənin sülh yolu ilə həlli maraqlarına kökündən ziddir. Bu hərəkətlər heç bir halda ATƏT-in Minsk qrupunun həmsədrlərinin gərginliyin azaldılması və münaqişənin sülh yolu ilə həlli prosesinin irəli aparılması və substantiv danışıqlar üçün müvafiq şəraitin yaradılmasına dair birmənalı çağırışının əks olunduğu 25 sentyabr 2019-cu il tarixli bəyanatının ruhu və mahiyyətinə uyğun gəlmir. Biz Ermənistan tərəfinin növbəti mənfur hərəkətini qətiyyətlə pisləyirik və bir daha xatırladırıq ki, məhz Ermənistan tərəfinin gərginliyin artırılmasına yönəlmiş siyasəti sülh prosesində irəliləyişin əldə olunmasına və bölgədə sülh və təhlükəsizliyə başlıca maneə təşkil edir" deyə XİN rəsmisi bildirib.

# Dövlət Komitəsinin sədri Hicran Hüseynova Serbiyada keçirilən beynəlxalq konfransda iştirak edib

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Serbiya Respublikasında keçirilən "Lider qadınlar və davamlı inkişaf - mütləq inkişaf" adlı beynəlxalq konfransda iştirak və çıxış edib. Bu barədə AZƏRTAC-a komitədən məlumat verilib.

Tədbirdən əvvəl Hicran Hüseynova Belqradın Taşmaydan parkında Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Beynəlxalq konfransın "Qadın liderlər - keçmiş, bu gün və gələcəkdə" adlı birinci panelində çıxış edən komitə sədri bildirib ki, ötən il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam oldu. Prezident İlham Əliyevin 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında sərəncamından irəli gələrək cümhuriyyətin 100 illiyi ölkəmizdə, o cümlədən dünyanın bir çox ölkələrində təntənəli şəkildə qeyd olundu. Müsəlman Şərqində və türk dünyasında ilk demokratik respublikanı yaratmaqla xalqımız sahib olduğu dövlətçilik ənənələrini bir daha təsdiq etdi. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən daha da gücləndirilən siyasət nəticəsində bu gün ölkəmiz Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisi kimi demokratik dövlət quruculuğunu inkişaf etdirir. Həmçinin Prezidentimizin uğurlu dövlət idarəçiliyi ilə bölgələrimizin sosial-iqtisadi inkişafı qadınların qarşısında böyük imkanlar açır.

"Hər bir dövlətin, xalqın inkişafı üçün həmişə hərəkətverici qüvvəyə ehtiyac olub və qadınlar belə bir məsuliyyətin öhdəsindən ləyaqətlə gəliblər. XIX sonu və XX əsrin əvvəllərində qadınlarımız novator ideyalar irəli sürərək, demək olar ki, yeni gender münasibətləri formalaşdırdılar. Belə ki, onlar xeyriyyəçilik fəaliyyəti ilə ilk qadın məktəbləri, qadın cəmiyyətləri yaratmaqla ictimai aktiv qadınların sayının artmasına dəstək oldular. Təhsilli qadın-təhsilli millət - bu, ölkənin vacib məsələlərindən biri idi. Əhalinin, xüsusilə də qadınların təhsil alması əsas vəzifəyə çevrildi" deyə Hicran Hüseynova bildirib.

Komitə sədri xüsusilə qeyd edib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyəti nəticəsində Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştirakına marağı artıb. Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı layihələr səhiyyə, mədəniyyət, sosial, ekologiya sahələrindən əlavə idman sahəsini və digər sahələri əhatə edir. Mehriban xanımın təşəbbüsü ilə qadın hüquqlarının müdafiəsi istiqamətində aparılan işlər xüsusilə qeyd olunmalıdır.

Hicran Hüseynova bütün nailiyyətlərlə yanaşı, ölkəmizin hələ də müharibə şəraitində olduğunu vurğulayıb. Qaçqın və məcburi köçkünlərin, xüsusilə də bu təbəqədən olan qadınların cəmiyyətə inteqrasiyası, onların sosial müdafiəsi, təhsil, tibb və digər xidmətlərin əlçatan olması üçün hökumət bütün zəruri işləri görür. Azərbaycanın bu sahədə təcrübəsi oxşar problemlər yaşayan ölkələrə nümunədir.

Həmçinin qadınların iqtisadi baxımdan vəziyyətinin yaxşılaşdırılması - yoxsulluq olmayan bir dünya mövzusunda ikinci paneldə çıxış edən Hicran Hüseynova bildirib ki, müasir iqtisadiyyatda qadın sahibkarlığı kiçik və orta sahibkarlığın daha dinamik hissəsini təşkil edir. Statistik məlumatlara görə, dünyada yeni biznes-strukturların 25 faizdən çoxunu qadınlar yaradıblar. Bu, onu göstərir ki, qadınların iqtisadi təşəbbüskarlığı artmaqdadır. Azərbaycanda da qadınlar ildən-ilə kiçik və orta sahibkarlıqda geniş təmsil olunmağa başlayıblar. Bu isə sosial-iqtisadi inkişafın, o cümlədən məşğulluğun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Komitə sədri bildirib ki, BMT-yə üzv dövlətlər Dayanıqlı İnkişaf Məqsədlərinə qoşularaq 2030-cu ilədək 17 məqsəd üzrə hədəflər müəyyən edib. Hər kəsi əhatə edən və universal xarakter daşıyan bu yeni məqsədlər fonunda qarşıdakı 11 il ərzində ölkələr "heç kəsi kənarda qoymamaq" prinsipini rəhbər tutaraq, yoxsulluğa son qoymaq, inkişaf və insanların rifahını təşviq etmək üçün bütün səylərini səfərbər edəcəklər.

"Bizim məqsədimiz odur ki, sahibkar qadınlarımız daha da inkişaf etsinlər, yeni bazarlara çıxış imkanlarına malik olsunlar, öz işlərini daha da genişləndirsinlər. Buna görə də çox vacibdir ki, həm yerli, həm də beynəlxalq səviyyədə əlaqələr qurulsun, şəbəkələr yaradılsın. Azərbaycan BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının (SPECA) Gender və İqtisadiyyat üzrə Tematik İşçi Qrupunun sədridir. Bir sıra layihələrimiz BMT-nin İnkişaf Proqramı, Əhali Fondu, Uşaq Fondu, Qaçqınlar üzrə Ali Komissarlığı, Beynəlxalq Miqrasiya Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin dəstəyi ilə reallaşır. Bu gün sahibkar qadınlarımız digər ölkələrin sahibkar qadınları ilə çox sıx əməkdaşlıq edir, ikitərəfli memorandumlar imzalayırlar. Türkiyə, Belarus, Rusiya və digər ölkələrin sahibkar qadınları ilə bağlanmış əməkdaşlıq sənədlərini misal göstərmək olar. Artıq bizdə belə bir təcrübə var ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən qadınlar üçün imkanlar yaradıldıqda və onlara stimul verdikdə çox müsbət nəticələrə nail olmaq mümkündür. Bu gün fəaliyyət göstərən 8 Qadın Resurs Mərkəzi, eyni zamanda, 11 Uşaq və Ailələrə Dəstək Mərkəzi buna əyani misaldır" deyə komitə sədri qeyd edib.

Hicran Hüseynova bildirib ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin İnkişaf Proqramının birgə layihəsi olan "Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı" texniki yardım layihəsi nəticəsində bu gün kənd qadınları çox fəaldırlar. Kənd yerlərində yaşayan qadınların yeni iş yerləri tapması üçün xüsusi iş və əmək yarmarkaları reallaşdırılır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və İqtisadiyyat Nazirliyinin dəstəyi ilə son 7 ayda sahibkar qadınların iştirakı ilə 50-dən artıq tədbir keçirilib. Həmçinin Ailə Biznesinə Dəstək Mərkəzlərinin (ABAD) yaradılması yeni iş yerlərinin açılmasını asanlaşdırmaqla yanaşı, kənd qadınları arasında kiçik və orta sahibkarlığı artırır. Son 16 ildə 4347 qadın sahibkara 79,1 milyon manat kredit verilib, o cümlədən qadın sahibkarlara verilmiş güzəştli kreditlər hesabına 6797 yeni iş yeri açılıb.

Konfrans müzakirə və məruzələrlə işini davam etdirib.

Konfrans çərçivəsində Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın Serbiya Baş Nazirinin müavini və Xarici İşlər naziri İvitsa Daçiç, həmçinin Nazirlər Kabinetinin Demoqrafiya və Əhali Məsələləri üzrə nazirinin məsləhətçisi Slavitsı Cukic-Deyanoviç ilə görüşləri baş tutub.

Həmçinin səfər çərçivəsində Belqraddakı Azərbaycan Mədəniyyət Mərkəzinə ziyarət təşkil olunub.

# Bakıda "Türk Şurası: Naxçıvan Sazişinin 10 illik yubileyi" mövzusunda konfrans keçirilib




Oktyabrın 3-də Bakıda "Türk Şurası: Naxçıvan Sazişinin 10 illik yubileyi" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə keçirilən konfransda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv və müşahidəçi ölkələrdən nümayəndələr, rəsmi şəxslər, deputatlar, "beyin mərkəzləri"nin rəhbərləri iştirak ediblər.

Tədbirdə çıxış edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, türkdilli dövlətlərin vahid təşkilatda birləşməsi ideyası hələ XIX əsrin sonlarında yaranmışdı. 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra bu ideya reallığa çevrilməyə başladı. Hazırda ortaq tarix və ədəbiyyat kitablarının yaradılması barədə qərar qəbul edilib.

Fərid Şəfiyev qeyd edib ki, iqtisadi sahədə əməkdaşlıq Türk Şurası üçün xüsusi əhəmiyyət kəsb edir. Lakin türk dövlətləri arasında ticarətin həcmi istənilən səviyyədə deyil. Turizm təkcə iqtisadi sahə deyil, eyni zamanda, mədəni əlaqələrin inkişafı üçün bir vasitədir və Türk Şurasına üzv dövlətlər bu sahənin inkişafına xüsusi diqqət ayırmalıdırlar.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Fərid Şəfiyev bildirib ki, ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında maddi-mədəniyyət nümunələrini dağıdırlar. Şuraya üzv dövlətlər bu məsələdə də birgə mövqe nümayiş etdirməlidirlər. Çünki bu abidələr türk xalqlarının ortaq dəyərləridir.

Türk Şurasının Baş katibinin müavini İsmət Gözəlov deyib ki, Türk Şurası müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafına töhfə verir. İndiyədək keçirilən görüşlərin mövzusu fərqli sahələri əhatə edib. Şuranın fəaliyyəti digər beynəlxalq təşkilatların fəaliyyəti ilə uzlaşır. Bu il üzv ölkələrin birgə Ticarət və Sənaye Palatası yaradılıb. Hazırda birgə İnvestisiya Fondunun yaradılması barədə fikir mübadiləsi aparılır.

Xarici İşlər nazirinin müavini Ramiz Həsənov bildirib ki, Türk Şurası üzv dövlətlər arasında münasibətlərin genişləndirilməsi baxımında əhəmiyyətli platformadır. Şura türk xalqlarının ortaq mədəniyyətinin və irsinin qorunmasında mühüm rol oynayır. Tarixi İpək yolunun canlandırılması iqtisadi sahədə əməkdaşlığımızın prioritetlərindən birini təşkil edir. Nazir müavini Naxçıvan Sazişinin türk dövlətləri arasında münasibətlərin möhkəmlənməsinə bundan sonra da böyük töhfələr verəcəyinə əmin olduğunu bildirib.

Sonra Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə Türkiyə Xarici İşlər Nazirliyi, Macarıstan Xarici Əlaqələr və Ticarət İnstitutu və Özbəkistan Prezidenti yanında Strateji və Regional Araşdırmalar İnstitutu arasında anlaşma memorandumları imzalanıb.

Tədbir "Türk Şurasının institutlaşmasının qarşısındakı problemlər və perspektivlər" və "Üzv dövlətlər arasında əməkdaşlığın perspektivləri" mövzularında panel iclaslarla davam edib.

Birinci paneldə çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva rəhbərlik etdiyi fondun fəaliyyəti, gördüyü işlər barədə ətraflı danışıb. Bildirib ki, fond qısa zaman ərzində türk dünyasının mədəniyyətini, zəngin tarixini, milli-mənəvi dəyərlərini əhatə edən müxtəlif layihələrə imza atıb.

Günay Əfəndiyeva vurğulayıb ki, hazırda dünyadakı qeyri-sabitliyə qarşı birgə mübarizə aparılmalıdır. Müasir keşməkeşli dünyada fikir, təcrübə mübadilələrinə ciddi ehtiyac var. Qədim tarixi, böyük mədəni irsi var olan türk xalqları hər zaman sülhün və maariflənmənin tərəfdarı olublar.

Konfrans müzakirələrlə davam edib.

# Klayv Marşal ADA Universitetində tələbələrə mühazirə oxuyub



Azərbaycanda səfərdə olan Böyük Britaniyanın Press Association agentliyinin baş icraçı direktoru Klayv Marşal oktyabrın 3-də ADA Universitetində olub.

AZƏRTAC xəbər verir ki, tələbələr qarşısında mühazirə ilə çıxış edən Klayv Marşal sosial medianın sürətlə inkişaf etdiyi dövrdə KİV-in, xüsusən informasiya agentliklərinin önəmindən, xəbərin dəqiqliyi və sürətli ötürülməsinin əhəmiyyəti barədə fikirlərini bölüşüb, bu istiqamətdə mövcud imkanlardan danışıb.

Baş icraçı direktor hazırda Böyük Britaniya və dünya mətbuatının gündəmində olan Brexitlə əlaqədar baş verən siyasi proseslərdən də bəhs edib.

Ölkəmizə əvvəlki səfərlərini xatırladan Klayv Marşal AZƏRTAC-ın təşkilatçılığı ilə 2016-cı ildə Bakıda keçirilən Dünya Xəbər Agentlikləri Konqresində iştirakını diqqətə çatdırıb, Xınalıqda gördüyü möhtəşəm təbiət mənzərələri barədə təəssüratlarını dilə gətirib.

K.Marşal Azərbaycan mətbuatının zəngin tarixindən söhbət açaraq, burada ilk xəbərin 150 il əvvəl çap olunduğunu əlamətdar hadisə kimi qeyd edib. Press Association agentliyinin baş icraçı direktoru budəfəki səfəri zamanı Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovla görüşdüyünü, söhbət zamanı ölkə mətbuatının inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparıldığını bildirib.

Mühazirədən sonra K.Marşal tələbələrin suallarını cavablandırıb.

# Mərkəzi Bank tədavülə yeni gümüş yubiley pul nişanları buraxıb

Cari ildə ölkəmizdə mərkəzi bankçılığın yaranmasının 100-cü ildönümü və əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Dövlət Neft Fondunun yaranmasının 20-ci ildönümünün qeyd olunması münasibətilə hər iki yubiley tarixlərinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən nominal dəyəri 5 AZN təşkil edən gümüş yubiley pul nişanları tədavülə buraxılıb.

AMB-dən AZƏRTAC-a bildirilib ki, yubiley pul nişanlarının çəkisi 1 troy unsiyası - 31.1 qram (+ 0.1 qram), diametri isə 38.61 millimetr təşkil edir. Pul nişanları Böyük Britaniyanın "The Royal Mint" şirkətində beynəlxalq standartlara uyğun "Pruf" texnologiyası əsasında istehsal edilib.

Mərkəzi bankçılığın 100 illik yubileyinə həsr olunmuş yubiley pul nişanının ön tərəfində iqtisadi inkişafı təcəssüm etdirən parabola xətlərinin fonunda Mərkəzi Bankın inzibati binasının təsviri, Ümummilli Lider Heydər Əliyevin kəlamı və imzası, arxa tərəfində isə Azərbaycan Respublikasının Dövlət gerbi, manatın simvolu, milli naxış və ornamentlər təsvir olunub.

Neft Fondunun 20 illik yubileyinə həsr olunmuş yubiley pul nişanının ön tərəfində fondun inzibati binasının təsviri, loqosu, Azərbaycan və ingilis dillərində "Azərbaycan Respublikası Dövlət Neft Fondu" və "20 il" sözləri, arxa tərəfində isə Dövlət gerbi, aypara, eləcə də milli naxış və ornamentlər təsvir edilib.

Yubiley pul nişanları nominal dəyərləri ilə ölkə ərazisində rəsmi ödəniş vasitəsidir.


## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 01 oktyabr 2019-cu il tarixli nömrəsində nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun, fondun nəzdində olan sosial xidmət müəssisələri üçün "İdarənin xərcləri" xərc maddəsində nəzərdə tutulan vəsait hesabına təsərrüfat mallarının satın alınması məqsədilə dərc edilmiş elanda dəyişiklik edilərək ilkin sənədlərin qəbul müddəti 23.10.2019-cu il saat 15:00-a, tender təklifinin müddəti 01.11.2019-cu il saat 15:00-a və zərflərin açılış vaxtı 04.11.2019-cu il saat 15:00-a təyin edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatına təsərrüfat mallarının satın alınması (inzibati təsnifatın 221310- "İdarənin xərcləri" xərc maddəsində nəzərdə tutulan vəsait hesabına) məqsədilə 02 avqust 2019-cu il tarixdə elan etdiyi kotirovka sorğusu Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin imtina etməsinə görə baş tutmamış hesab edilir və onun davamından imtina edilir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatına təsərrüfat mallarının satın alınması üçün

***kotirovka sorğusu elan edir***

Təkliflər 9 oktyabr 2019-cu il saat 15:00-a qədər Bakı şəhəri, H. Zərdabi prospekti, 80 ünvanına, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatına təqdim olunmalıdır. Əlavə məlumatı tender komissiyasından ala bilərsiniz.

**Əlaqə telefonu: 012-530-29-03**

***Tender komissiyası***

## Həmkarlarımız

# Bəxtiyardır, ona görə ki...



Zəhmətsevərlik, məsuliyyət, tutduğu vəzifəyə vicdanla yanaşmaq, üzərinə düşən işi yüksək səviyyədə yerinə yetirmək, ümumiyyətlə, bütün digər müsbət keyfiyyətlər insanın daxili dünyasından, əslində genindən və aldığı tərbiyədən irəli gəlir. Peşə, sənət isə bütün bunları gerçəkləşdirmək, həyatda əyani tətbiq etmək üçün bir vasitədir.

Həmkarımız, iş yoldaşımız, “Azərbaycan”ın şöbə müdiri Bəxtiyar Əzizli jurnalistliyi seçməsəydi, başqa bir sahədə çalışsaydı belə, yuxarıda deyilənlərin hamısının daşıyıcısı olardı. Çünki bunları zəhmətdən doymayan, yorulmaz təsərrüfat adamı olan, ömrünün sonunadək əli işdən-gücdən soyumayan atası Məhərrəm kişidən əxz edib. Bu keyfiyyətlər indi ömrünün ahıl çağını yaşayan, ən qayğıkeş və ailəcanlı Azərbaycan qadınlarından biri olan anası Almaz xanıma da xasdır.

Valideynləri övladlarının - üç oğul və iki qızlarının (Bəxtiyar onların ortancılıdır) sənət seçiminə müdaxilə etməyiblər. “Yetər ki, harada yaşasalar da, hansı sahədə çalışsalar da, gözlərini həyata açandan gördükləri nümunədən kənara çıxmasınlar” deyə düşünüblər.

Bəxtiyar jurnalistikanı seçdi. Həm də fikrini çox erkən qətiləşdirmişdi. Hələ orta məktəbin beşinci-altıncı sinfində oxuyarkən Göyçay rayonunda çıxan “Yeni həyat” qəzetində ilk kiçik yazıları dərc olunanda... 12 rubluq birinci əməkhaqqını da qonorar şəklində o vaxt almışdı.

Həyatın yolları heç də həmişə rəvan olmur. Dövranlı kəndindən arzu-kamla Bakıya gəlib universitetin jurnalistika fakültəsinə imtahan verən gəncin rus dilini zəif bilməsi onun tələbə olmağına əngəl törədir. Lakin o, ordu sıralarına çağırılanadək vaxtını boş keçirməməyə qərar verir. Jurnalistika sənətkarlığı kurslarına yazılıb orada təhsil alır.

Deyirlər, cavanlar orduda mətinlik dərsi keçirlər. Bəxtiyar üçün isə əsgərlik illəri həm də rus dilini öyrənmək üçün əlverişli dövr oldu.

Artıq narahat, qanlı-qadalı 1990-cı il idi. Əsgər şinelini təzəcə mülki paltara dəyişmiş gənc həmin il yenidən Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə imtahan verib daxil oldu. Bu dəfə qiyabi şöbəyə. Çünki artıq iyirmi bir yaşı vardı. Həm oxumağın, həm də işləməyin öhdəsindən gələ bilərdi.

Beləcə, Bəxtiyar Əzizli Jurnalistika fakültəsində təhsil ala-ala “Qarabağ” qəzetində müxbir kimi çalışmağa başladı. Bir-birindən maraqlı yazıları dərc olunurdu. O zaman böyük tirajla çıxan həmin qəzetin oxucular tərəfindən sevilməsində şübhəsiz ki, bu yazıların da rolu vardı. Az sonra müxbirlikdən məsul katib vəzifəsinə irəli çəkildi. Burada da özünü doğrultdu.

“Qarabağ”dan sonra Bəxtiyar Əzizli bir müddət təzəcə təsis olunmuş “Şimali Azərbaycan” qəzetində çalışdı.

1993-cü ilin ortalarından isə taleyi “Azərbaycan”la bağlıdır. Əvvəlcə qəzetin məsul katibinin müavini işləyib, sonra şöbə müdiri vəzifəsinə təyin olunub. Uzun illərdir şöbəyə bacarıq və səriştə ilə rəhbərlik edir.

Azərbaycan mətbuatına töhfələri diqqətdən kənarda qalmayıb, Prezident İlham Əliyevin sərəncamı ilə ona Əməkdar jurnalist fəxri adı verilib.

Qəzet işi ilə yaxından tanış olmayanlar bəlkə də şöbə müdiri kimi çalışmağın asan olduğunu düşünə bilərlər. Lakin heç də belə deyil. Əksinə, hər hansı şöbənin xətti ilə dərc olunan materiallarda çoxsaylı fakt və rəqəmlər özünə yer alır ki, bunların da hər biri dəqiq olmalı, qəzetdə düzgün getməlidir. Təbii ki, bir çox hallarda daxil olan yazıların redaktə edilməsinə, qəzetin dilinə və üslubuna uyğun işlənməsinə ehtiyac yaranır. Bütün bunlarla yanaşı, həmkarımızın özünün də qəzetin səhifələrində müxtəlif mövzularda məqalələri dərc olunur. Şöbənin müdiri və işçiləri günün tələbləri ilə səsləşən, aktual mövzularda yazılan bir çox materialların qəzetdə dərc olunmasında fəal iştirak edirlər. Bir sözlə, bu şöbə də qaynar qəzet həyatı ilə yaşayır.

Bəxtiyar Əzizli, həmçinin redaksiyanın ictimai həyatında fəal iştirak edir, heç vaxt xeyirdən-şərdən, kollektivin qayğılarından kənarda qalmır. Ümumiyyətlə, ünsiyyətcil, xeyirxah bir insandır. Çevrəsində olanlara lazım gələndə kömək əli uzatmağa çalışır. Heç olmasa-heç olmasa ürək-dirək verməklə, xoş sözlə, şux zarafatla.

Biz onu hər gün belə görməyə alışmışıq. Günlər isə elə tez-tez ötüşüb illərə qovuşur ki... Dünən övladlarının dünyaya gəlməsi münasibətilə təbrik etdiyimiz gənc ata bu gün artıq babadır. Övladları Şəhla və Şəhriyar ali təhsillərini başa çatdırıblar, biri psixoloq, digəri iqtisadçıdır. Xədicə isə orta məktəbdə oxuyur.

Belə bir söz də var: deyirlər ki, insanın adı həmişə onun xasiyyətinə, taleyinə təsir edir. Çoxlarımız buna sözgəlişi deyilən, ötəri bir fikir kimi baxsaq da, həyatda məhz belə olduğunu tez-tez görürük. 50 il bundan əvvəl göyçaylı Ələkbər kişi qızının övladına Bəxtiyar adını vermişdi. Adətimizə görə, “Adını mən verdim, taleyini Tanrı versin” demişdi.

Bəxtiyar Əzizli həqiqətən xoşbəxt bir insandır. Çünki evində qayğıkeş ailə başçısı, doğmaları arasında yaxşı qohum, “Azərbaycan” qəzetində dəyərli işçi, el-obası üçün isə layiqli oğul kimi gərəkdir. Həmkarımıza həmişə bəxtiyar olmağı arzulayan “Azərbaycan”çılar adından

***Flora SADIQLI***

## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
## *tender elan edir*

Maliyyə Nazirliyinin Aparatına kompüter, printer, surətçıxaran, skaner avadanlıqları, mövcud audio və video müşahidə sistemi və bir sıra server avadanlıqları üçün ehtiyat hissələrinin satın alınması

**İştirak haqqı: 500 manat**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müvafiq LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tenderdə iştirak haqqı bu hesaba köçürülməlidir:**

**A1. Benefisiar (alan) bank**
**Adı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi**

**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**B2. Alan təşkilat: Azərbaycan Respublikası Maliyyə Nazirliyi**
**Hesab: AZ83CTRE00000000000002108571**
**Büdcə səviyyə kodu - 7**
**Büdcə təsnifat kodu - 142340**
**VÖEN: 1400108191**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **22 oktyabr 2019-cu il saat 17:00-dək** və tender təklifi ilə bank təminatı sənədlərini **31 oktyabr 2019-cu il saat 17:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **01 noyabr 2019-cu il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

*Lənkəran Dövlət Universiteti İdarənin xərcləri, kənd təsərrüfatı texnikası və toxumları və LDU-nun 5 mərtəbəli yataqxana binasına telefon xəttinin çəkilişi işləri ilə əlaqədar kommunal və kommunikasiya xidmətləri ilə bağlı digər xərclər üzrə kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.*

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 07.10.2019-cu il saat 18:00-dək qəbul olunur.

Ünvan: Lənkəran şəhəri, Həzi Aslanov, 50

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu” tərəfindən təbliğat və təşviqat materiallarının çap işlərinin satın alınması ilə əlaqədar keçirilmiş təkliflər sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Təkliflər sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən “Şərq-Qərb” ASC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzində 2019-cu il üçün dəri və yapışdırıcı vasitələrin satın alınması ilə əlaqədar
## *açıq tenderə dəvət edir*

**LOT 1.** Dəri və yapışdırıcı vasitələrin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 1:100 AZN**
**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

**Hesab: AZ81IBAZ38060019449725614215**
**VÖEN: 9900001881**
**Bank: ABB Xətai filialı**
**Kodu: 805625**
**M/H: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 24 oktyabr 2019-cu il saat 18:00-dək və tender təklifi ilə bank təminatı sənədlərini 04 noyabr 2019-cu il saat 15:00-dək Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 04 noyabr 2019-cu il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

### DÜZƏLİŞ

“Azərişıq” ASC-nin “Azərbaycan” qəzetinin 03 oktyabr 2019-cu il tarixli sayında dərc olunmuş açıq tender elanında tarixlər aşağıdakı kimi oxunmalıdır:

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 22 oktyabr 2019-cu il saat 16:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 31 oktyabr 2019-cu il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 01 noyabr 2019-cu il saat 16:00-da açılacaqdır.

***Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının 56 nömrəli sərəncamı ilə 04 mart 2003-cü il tarixdə Məhbubə Lələkişi qızı Vəliyevanın adına Bakı şəhəri, İ.Qutqaşınlı küçəsi, ev 4, mənzil 85 ünvanına dair verilmiş 001921 nömrəli order və həmin şəxs tərəfindən 31 mart 1999-cu il tarixdə Yeganə Behbud qızı Vəliyeva üçün tərtib olunmuş, 40 saylı Bakı Dövlət Notariusu tərəfindən təsdiq edilmiş vəsiyyətnamə itdiyi üçün etibarsız sayılır.***

Azercell

## abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 08.10.2019-cu il tarixdə gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 28 avqust 2019-cu il tarixli nömrəsində Fondun nəzdində olan sosial xidmət müəssisələrinə inventarların satın alınması üzrə elan edilmiş açıq tenderdə qiymət təklifi verən podratçıların sayı üçdən az olduğu üçün “Dövlət satınalmaları haqqında” Qanunun 50-4.2. maddəsinin tələbinə əsasən tender baş tutmamış hesab olunur və onun davamından imtina edilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən 2019-cu il 02 oktyabr tarixdə keçirilməsi nəzərdə tutulan “Dəri və yapışdırıcı vasitələr”in satın alınması üzrə tenderdə iddiaçıların sayı üçdən az olduğundan “Dövlət satınalmaları haqqında” qanunun 50-4.2. maddəsinə əsasən tenderin davamından imtina edilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş
## “Azərsu” Açıq Səhmdar Cəmiyyəti

“Azərbaycan” qəzetinin 13 sentyabr 2019-cu il tarixli nömrəsində “Azərsu” ASC-nin daxili vəsaiti hesabına “Azərsu” ASC-nin tabeliyində fəaliyyət göstərən laboratoriyalarda istifadə olunan cihazların əsaslı və cari təmir işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderlərdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının Portal vasitəsilə qəbul vaxtı 24 oktyabr 2019-cu il saat 18.00-a, təkliflərin açılışı isə 25 oktyabr 2019-cu il saat 11.00-a dəyişdirilmişdir.

İddiaçılar “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs Məmmədyar Musayev, 431 47 67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, Novruzəli Aslanov, İqbal Məmmədov, Hüseynbala Mirələmov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə, Aydın Hüseynov, Milli Məclis Aparatının əməkdaşları Vilayət Əlizadə, Zahid Abbasov və Məhəmməd Gülməmmədov Milli Məclisin Komitə və komissiyalar ilə iş şöbəsinin baş məsləhətçisi İsa Hüseynova dayısı

**SƏMƏD ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan” nəşriyyatının kollektivi iş yoldaşları Ofelya Şahbazovaya atası

**CAMAL ÇƏLƏBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Gəncə İnzibati-İqtisadi Məhkəməsinin sədri Natiq Abbasova atası

**MEHDİ ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin professoru, əməkdar elm xadimi, Milli Məclisin sabiq deputatı

**RAUF ƏBDÜLƏLİ OĞLU İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8965
Sifariş 3872
Qiyməti 40 qəpik